## Həsrət

# Elə sevirdim ki...



“Elm v ə təhsil”
Bakı-2013





***Redaktor:***
**Ceyhun Kərimli**

**Həsrət. Elə sevirdim ki...**
**Bakı, “Elm və təhsil”, 2013, 204 səh.**

Şairin bu kitabında toplanmış şerlərinin əsas mövzusu əvvəlki kitablarında olduğu kimi, vətən, torpaq, yurd sevgisidir.Bu kitaba 1992-ci ildə kiril əlifbası ilə çap olunmuş ilk şerlər kitabı-“Ocaq daşı” latın əlifbası ilə olduğu kimi əlavə edilmişdir

$\frac{4702000000}{N098 \quad 2013}$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2013**

# ŞƏHİD VARSA VƏTƏN VAR





## YERİ

Çiçəklənir torpağım,
Təzələnir növrağım,
Dalğalanır bayrağım-
Vətənimin dan yeri.

Dayağın eldən alır,
Günü-gündən ucalır,
Üstümüzə nur salır,
Üstündəki qan yeri.

O ömrümün qayəsi,
Ən müqəddəs ayəsi,
Hər daşı, hər qayası,
Ömrümün güman yeri.

Ilhamım dəniz olur,
Kədərsiz-qəmsiz olur,
Daha da əziz olur,
Qanımız daman yeri.

Bağında gül bitəndi,
Bülbülləri ötəndi,
Harda olsa Vətəndi,
Həsrətin iman yeri.

## DAĞLARA SARI

Gəl dostum, gəl qalxaq göy yaylaqlara,
Gedək təbiətin qoynuna sarı.
Baş çəkək o isti alaçıqlara,
Çoxdandı görmürəm doğma dağları,
Gedək təbiətin qoynuna sarı.

Xalıya bənzəyir burda hər tala,
Hər tala üstündə qar tala-tala,
Qoşulaq səmada süzən qartala,
Biz də qucaqlayaq sal qayaları,
Gedək təbiətin qoynuna sarı.

Çoxdandı həsrətlə döyünür ürək,
Onun həsrətinə son qoyum gərək,
Əlvan çiçəklərdən çələnglər hörək,
Bənövşə toplayaq yarıb kolları,
Gedək təbiətin qoynuna sarı.

Şəhərin səsindən, küyündən uzaq,
Qısa ömrümüzə bir tarix yazaq,
Qaya çatlarından bulaq tək sızaq,
Unutmaq olarmı o saf suları.
Gedək təbiətin qoynuna sarı.

Indi gül-çiçəyə bürünüb dağlar,
Bir çiçək həsrəti, Həsrəti, dağlar,
Su səpsin sinəmə sərin bulaqlar,
Qəlbimin atəşi səngisin barı.
Gedək təbiətin qoynuna sarı.





## YAZ OLANDA GƏL

Sən bizim ellərə yaz olanda gəl,
Bulaqlar bal kimi süzülür onda.
Çiçəklər çəmənə düzülür onda.
Gün altda bərq vurur şeh damlaları,
Top kimi oynadır meh damlaları,
Elə bil çöllərə səpələnir ləl.
Sən bizim ellərə yaz olanda gəl.

Al-yaşıl geyinir əyninə dağlar,
Gəlintək bəzənir bağçalar-bağlar.
Səmada buludlar lay-lay sökülür,
Yerə ulduz-ulduz çiçək tökülür,
Gəzir dəstə-dəstə bənövşə əl-əl.
Sən bizim ellərə yaz olanda gəl.

Coşur nəriltisi axan sellərin,
Ağzı köpüklənir gen dərələrin,
Önünə keçəni yuyub aparır,
Hərdən ildırımlar haray qoparır.
Çaxır qayalara şimşəklər çəngəl.
Sən bizim ellərə yaz olanda gəl.

Yolların nişana, düyünə düşsün,
Bir el gözəlinin toyuna düşsün,
Üzlərdən, gözlərdən gülüş dərməyə,
Məhəbbətlə dolu ocaq görməyə,
Ürəyin həsrətdən yorulanda gəl.
Sən bizim ellərə yaz olanda gəl.

## GƏTİR

Zamanoğlu, yolun düşsə bizlərə,
Ocaq qalamağa bir az köz gətir.
Şəhərin sazağı üşüdür məni,
O dağlar qoynundan bahar- yaz gətir.

Gözlərdən üstümə qəhər süzülür,
Toz-torpaq içində şəhər üzülür,
Dinənin dilindən zəhər süzülür,
Bir könül oxşayan şirin söz gətir.

Bir az quzqulağı, bir az qulançar,
Bir az kəklikotu könlümü açar,
Heç kəsi olmasın elindən düçar,
Doğduğum torpadan bir az qaz gətir.

Indi çiçəkləyib bağçalar, bağlar,
Bir çiçək həsərəti qəlbimi dağlar,
Yaman tez-tez girir yuxuma dağlar,
Bir dəstə bənövşə, nərgiz üz gətir.

Həsrətə el dərdi olubdu sirdaş,
Həsrəti qəlbimdə qurubdu bardaş,
Əgər imkan olsa ləngimə, qardaş,
Yaman darıxıram, bir az tez gətir.





## YANIR

Yararnan gündən xırdalar,
Irinin üstündə yanır.
Arasan hər şeyin biri-
Birinin üstündə yanır.

Çoxdandır ki, bütün bəşər,
Unudubdu nədi məhşər,
Yaxşı, yaxşı əməldən- şər,
Şərinin üstündə yanır.

Ömrümüz haqdan bölümdü,
Həyatın sonu ölümdü,
Yaşın yanmağı zülümdü,
Qurunun üstündə yanır.

Tarix olan nakam adlar,
Ürək dağlar, sinə odlar,
Polad biləkli fərhadlar,
Şirinin üstündə yanır.

Dünya heçdi, dünya yalan,
Söz olacaq mənə qalan,
Zilfidağlı, şair olan,
Şerinin üstündə yanır.

## ARASINDA

Qanadlanıb uçaydım,
Quşların arasında.
Çiçək olub açaydım,
Daşların arasında.

Yalan doğru bürünür,
Haqqın haqqı sürünür,
Dolu da boş görünür,
Boşların arasında.

Insan ol nəfsi duru,
Düzü əyridən qoru,
Yanmaz, olmasa quru,
Yaşların arasında.

Üz, nə qədər söyülər,
Düz, nə qədər əyilər,
Söz, nə qədər yeyilər,
Dişlərin arasında.

Sona giriş gəzirəm,
Dərdə duruş gəzirəm,
Hələ kişmiş gəzirəm,
Aşların arasında.





## YAŞAYIRAM

Yayılır sinəmə həsrət dumanı,
Bürüyür başımı çən, yaşayıram.
Saxlamaq olmayır vaxtı, zamanı,
Səpir saçlarıma dən, yaşayıram.

Qayğısız-qayğısız gəzdiyim yerlər,
Yaşıl otlarını əzdiyim yerlər,
Gül-çiçək, bənövşə üzdüyüm yerlər,
Hələ də qoxuyur qan, yaşayıram.

Yad dillər içində tapdanır dilim,
Ellər pərən-pərən, yurd dilim-dilim,
Yaşamaq şirindi, qorxudur ölüm,
Beləcə bəsləyib can, yaşayıram.

Gülüş aparmağa qapımı döymə,
Sınsa da əyilməz, başımı əymə,
Mənim kədərimə, qəmimə dəymə,
Mən öz dərdlərimlə şən yaşayıram.

Dağların sinəsi bürünüb çənə,
Itibdi dumanda zirvələr yenə,
Göylərdən əl edir ruhum mənə,
Düşmüşəm özümdən gen, yaşayıram.

## ŞƏHİD VARSA

Bəxtəvərdi, bu torpaq,
Harayına yetən var.
Yolları sabahadı,
Qollarından tutan var.

Bağlanıb ellərinə,
Çevrilib güllərinə,
Səpilib çöllərinə,
Qucağında bitən var.

Həsrət, sinən üstə yaz,
Qanları yerdə qalmaz,
Şəhidsiz Vətən olmaz,
Şəhid varsa, Vətən var!





## GÖSTƏRİN

Ulduzların söndüyü,
Küləklərin döndüyü,
Mələklərin endiyi,
Yeri, mənə göstərin.

Doğru, sözdən tanınır,
Oğru, gözdən tanınır,
Yaxşı, üzdən tanınır,
Şəri, mənə göstərin.

Torpaq çox, can əkməyə,
Ürək yox, dərd çəkməyə,
Önündə diz çökməyə,
Piri, mənə göstərin.

Nə aparır, əlim, nə?
Nə daddı ki, dilim nə?
Eşq yanında ölüm nə?
Sirri, mənə göstərin.

Goram, dərdin qazdığı,
Yolam, vaxtın azdığı,
Həsrət yalan yazdığı,
Şeri, mənə göstərin.

## KİŞİNİN

Öz üstünə pis ad almaz,
Üzü bir olar, kişinin.
Hər qapıya cığır salmaz,
Izi bir olar, kişinin.

Eldən alar od ocağı,
O, qalamaz yad ocağı,
Ev-eşiyi, od-ocağı-
Közü bir olar, kişinin.

Ürəklərə xeyir əkər,
Şər olanı haqqa çəkər,
Vətən dara düşsə əgər,
Yüzü bir olar, kişinin.

Baş əyirsə pir Allaha,
Söyləyirsə nur, Allaha,
Inanırsa bir Allaha,
Özü bir olar, kişinin.

Həsrət gedən öz yoludu,
Od yoludu, köz yoludu,
Hər kişinin, söz yoludu,
Sözü bir olar, kişinin.





## TƏHLÜKƏDİ

Doğma xiffətilə, yurd həsrətilə,
Gözlərdən süzülən yaş, təhlükədi.
Vaxt istər haçansa gələcək dilə,
Qəribliyə düşən daş, təhlükədi.

Tamahkar mədəyə, nəfsə kölədi,
Şərin hər əməli xeyrə şələdi,
Unutma, süfrəsi hiylə, tələdi,
Namərdlə yeyilən aş, təhlükədi.

Yaddısa məhəbbət, eşq ürəyinə,
Nəyinə gərəkdi, ürək, nəyinə?
Çox da fikir vermə bər-bəzəyinə,
Həmişə göz üçün qaş, təhlükədi.

Insan olanların oduna qalan,
Hər zaman pir kimi başına dolan,
Bu günü yalandı, sabahı yalan,
Haqqa əyilməyən baş, təhlükədi.

Cahilə, nadana söyləmə nəsə,
Qulaq as qəlbindən ucalan səsə,
Yaşamaq həvəsi olan hər kəsə,
Ay Həsrət, ölüm də boş təhlükədi.

## SATILMIR

Hələ təbiətin öz yiyəsi var,
Dənizi satılmır, çayı satılmır.
Insan əli çatmır havaya, suya,
Hələ buludların layı satılmır.

Bu qədər gülməzdi üzü çöllərin,
Itərdi sonası mavi göllərin,
Yarımçıq olardı ömrü illərin,
Nə yaxşı ki, günü, ayı satılmır.

Qışından qar yağır, Yazından güllər,
Hamını qoynuna çağırır çöllər,
Nə yaxşı hamıya birdi fəsillər,
Nə yaxşı Payızı, Yayı satılmır.

Göylər hamınındı,Yer hamınındı,
Yağış hamınındı, qar hamınındı,
Isti hamınındı, nur hamınındı,
Günəşi satılmır, Ayı satılmır.

Düzən İlahidi, pozan İlahi,
Səpən İlahidi, üzən İlahi,
Hamıya qisməti yazan, İlahi,
Onun göndərdiyi payı satılmır.





## ÖLƏNLƏRİ BAĞIŞLAYIN

Dərdlərini qucaqlayıb,
Gülənləri bağışlayın.
Sevincini özgələrlə,
Bölənləri bağışlayın.

Gətirməyib qəmin dilə,
Gizli yanıb dönür külə,
Göz yaşını gülə-gülə,
Silənləri bağışlayın.

Vaxt qoyarsa bir mərdi tək,
Arzuları açmaz çiçək,
El dərdini öz dərditək,
Bilənləri bağışlayın.

Bu yol, bilməz cavan-qoca,
Bu yol, baxmır taxta-taca,
Gedənlərin arxasınca,
Gələnləri bağışlayın.

Təmiz tutdu, Həsrət, adın,
Elə verdi eşqin odun,
Haqqınızı halal edin,
Ölənləri bağışlayın.

## GƏZDİRƏR

Namərd süfrəsində oturan, kişi,
Boynunda ölüncə minnət gəzdirər.
Təmənnasız olur comərdin işi,
Tutub əllərindən cənnət gəzdirər.

Çəkməz qabağına ocaqdan közü,
Nəfsinə qul olmaz, tox olar gözü,
Saqqıztək çeynəməz ağzında sözü,
Hər an söhbətində qiymət gəzdirər.

Ocaq dərdi çəkər, köz yükü çəkər,
Çörək qədri bilər, duz yükü çəkər,
Sözü uca saxlar, söz yükü çəkər,
Kişi, söz gəzdirməz, qeyrət gəzdirər.

Kişi, yurd qoruyar, torpaq qoruyar,
Qoymaz yurdu olsun tapdaq, qoruyar,
Kişi, baş qorumaz papaq qoruyar,
Papaq qorumayan, lənət gəzdirər.

Elindən, yurdundan qovulan kişi,
Arzusu göylərə sovrulan kişi,
Intiqam hissilə qovrulan kişi,
Düşmənə, Həsrəttək, nifrət gəzdirər.





## ÇƏTİNDİ

Arzusuz, amalsız yaşayan adam,
Məqsədsiz mənzilə çatmaq çətindi.
Qəlbində qəm yükü daşıyan adam,
Zamanın nəbzini tutmaq çətindi.

Göz yaşı söndürmür qəlbin odunu,
Qılıncdı yaşadan igid adını,
Ata ocağını, ata yurdunu,
Unutmaq çətindi, atmaq çətindi.

Silahlan, düşmənə verməyək aman,
Dağların üstündən çəkilsin duman,
Bizi yaş üstünə düzsə də zaman,
Bu qədər qurunu çatmaq çətindi.

Ayrılmaz, qırılmaz bağ olsaq əgər,
Körpülər saxlayan tağ olsaq əgər,
Dağlara söykənsək, dağ olsaq əgər,
Dəryalar içində batmaq çətindi.

Olsa qayğısına qalan torpağın,
Olmaz var-dövləti talan torpağın,
Sinəsi narahat olan torpağın,
Qoynunda rahat yatmaq çətindi.

## KEÇİB GETDİLƏR

Alçalanlar, alçaldılar,
Əl çalanlar, əl çaldılar,
Namərdlər körpü saldılar,
Keçənlər, keçib getdilər.

Qorxu gəlmədi eyninə,
Ölüm girmədi beyninə,
Kəfənini öz əyninə,
Biçənlər, biçib getdilər.

Düşmən, görüb qeyrətini,
Gizlətmədi heyrətini,
Vaxtsız ölüm şərbətini,
Içənlər, içib getdilər.

Hər tərəf dumandır, çəndir,
Yol axtarır kimi dindir,
Ya çörək, ya da ki, kəndir,
Seçənlər, seçib getdilər.

Haqq yaz, Həsrət, ünvanına,
Haqdı zinət, ünvanına,
Əbədiyyət ünvanına,
Köçənlər, köçüb getdilər.





## YAZIRAM

*Hərdən soruşurlar nədən yazırsan?*

Haq yolunda heydən düşən,
Dizin dərdindən yazıram,
Gəzib tapa bilmədiyim,
Izin dərdindən yazıram.

Silkələsən dərd yağacaq,
Hansı dağı qucaq-qucaq,
Söndürülüb ocaq-ocaq,
Közün dərdindən yazıram.

Atılanda daşa dəyən,
Daşdan dönüb başa dəyən,
Kütə dəyən, boşa dəyən,
Sözün dərdindən yazıram.

Yaraları qor eləyən,
Həsrət yükü zor eləyən,
Gördükləri kor eləyən,
Gözün dərdindən yazıram.

Komasına yağış yağan,
Üzündə yaş açıb yarğan,
Üzü bağlı zibil yığan,
Üzün dərdindən yazıram.

Doğrulara oğru deyən,
Oğruları doğru yeyən,
Əyrilərə boyun əyən,
Düzün dərdindən yazıram.

## NƏ VECİNƏ

Çişəyin üzən kimdi,
Döşünə düzən kimdi,
Üstündə gəzən kimdi,
Torpağın nə vecinə.

Içinə çökdüyü nə,
Kökünə bükdüyü nə,
Gövdənin çəkdiyi nə,
Budağın nə vecinə.

Sinənin odu getdi,
Ürəyi yedi getdi,
Söz idi dedi getdi,
Dodağın nə vecinə.

Göz yaşı da bir sudu,
Axdı yanağı yudu,
O dərəni sel uddu,
Bu dağın nə vecinə.

Çətin sorğu sorulsun,
Xeyir olsun, şər olsun,
Asılmağa yer olsun,
Papağın nə vecinə.





## BİLİRSƏNSƏ

Üstünə doğacaq dan,
Güləcək üzün hər an,
Qonşuya ocağından,
Köz çəkə bilirsənsə.

Nur gələcək gözünə,
Güc gələcək dizinə,
Həqiqətdən özünə,
Üz çəkə bilirsənsə.

Sənə and içəcəklər,
Qəlbinə köçəcəklər,
Nazını çəkəcəklər,
Naz çəkə bilirsənsə.

Sözdü insana zinət,
Danış, söylə həqiqət,
Sözünə verib qiymət,
Söz çəkə bilirsənsə .

Əl aç, hər vaxt haqq ələ,
Haqqını Haqdan dilə,
Həsrət, haqqa haqq ilə,
Diz çökə bilirsənsə.

## BU DÜNYADA

Göy soyuqdu, Yer soyuqdu,
Sinəsi oyuq-oyuqdu,
Təəccüblü heç nə yoxdu,
Heyrət dolu, bu dünyada.

Tale mənə büzdü dodaq,
Dərd sinəmdə tabaq-tabaq,
Qismətimə düşənə bax,
Qismət dolu, bu dünyada.

Açılmadı əlim-qolum,
Sevinmədi sağım -solum,
Mürvətsizlər kəsdi yolum,
Mürvət dolu, bu dünyada.

Sürünməkdən can yoruldu,
Indi ömür yarı yoldu,
Varım kağız-qələm oldu,
Sərvət dolu, bu dünyada.

Burda tutmur gələn qərar,
Haya çatmır nə zər, nə var,
Həsrət, sənin nə işin var,
Həsrət dolu, bu dünyada.





## QAR YAĞDI

Keçdiyim yollar itibdi,
Izə qar yağdı, qar yağdı.
Isinməyə od-ocaq yox,
Közə qar yağdı, qar yağdı.

Gülüşüm dondu üzümdə,
Günəşim söndü gözümdə,
Çiçəyim soldu düzümdə,
Yaza qar yağdı, qar yağdı.

Bulaqlar qalıbdı ağlar,
Yağılara tapdaq bağlar,
Həsrət güvəndiyi dağlar,
Sizə qar yağdı, qar yağdı.

## ELLİ

Elə zəhləm gedir elsiz, özümdən,
Müsibətim saçaq-saçaqdı, elli.
Vüsal qismətimdən, gülüş üzümdən,
Yuxu gözlərimdən qaçaqdı, elli.

Döyüş həsrətilə qollarım əsir,
Bir qılınc üzündən yollarım əsr,
Adamın ömrünü içindən kəsir,
Ayrılıq xəncərdi, bıçaqdı, elli.

Düşmənin dişində qalıbdı şirə,
Bilirmi qalxanda dönürük şirə,
Gün gələr göstərrik yerini şərə,
Yıxılıb qalxanda qoçaqdı, elli.

Türk adı bölünməz, çünki tək heca,
Bayrağı bənzəyir göylərdə taca,
Ucalar, hər yerdə görünür uca,
Alçaq, zirvədə də alçaqdı, elli.

Qəm yemə, qardaşım, Türkün torpağı,
Heç vaxt olmayıbdı düşmən tapdağı,
Dur gedək o yurda sancaq bayrağı,
Vətən Türk oğluna ocaqdı, elli.





## BİZİ

Neçə günaha batırıb,
Ruhumuz canda bizi.
Şirin dil ilə yatırıb,
Azdırır dumanda bizi.

Bilməsək öz yerimizi,
Xeyrimizi, şərimizi,
Sevməsək bir-birimizi,
Kim sevəcək onda bizi?

Doğru yerimək istəmir,
Oğru kirimək istəmir,
Allah da görmək istəmir,
Yaratdığı donda bizi.

## ELOĞLU

*Elxan Hüseynova*

Milyon illər ötüb, eralar ötüb,
Dünya dəyişməyib haman, eloğlu.
Qoynuna gələnlər orda da itib,
Kimsəyə verməyib aman, eloğlu.

Vara çox da uyma gəldi-gedərdi,
Baxta bel bağlma qismət-qədərdi,
Sevgisiz bir ömür heçdi, hədərdi,
Sevgidi dərdlərə dərman, eloğlu.

Əlləri boş gəlir, boş gedir insan,
Gözündə yaş gəlir, yaş gedir insan,
Bahar gedir insan, qış gedir insan,
Yoxdu dayanmağa güman, eloğlu

Hər şeydən şirindi yaşamaq dadı,
Həyat, sevgi ilə yaşamaqdadı,
Sevgi zirvələrtək ucalıqdadı,
Nə qədər bürüsə duman, eloğlu.

Beləcə çapırdır dünya atını,
Təkcə Tanrı bilir son saatını,
Dəyişə bilmərik gedişatını,
Dəyişən zamandı-zaman, eloğlu.





## DEYİL

Dərdlərini sığallama,
Dərd sığala yatan deyil.
Bu dünyaya bel bağlama,
Anan deyil, atan deyil.

Sinəsini dərd dağlayıb,
Yollarını şər bağlayıb,
Bu yeri Allah qarğayıb,
Sulama ot bitən deyil.

Gərək yurda yana oğul,
Keşiyində dona oğul,
Deyilsənsə ona oğul,
Vətən, sənə, Vətən deyil.

Üstümüzə yağan dərdə,
Yol açmayaq gərək bir də,
Qeyrətin bitdiyi yerdə,
Haqq-ədalət batan deyil.

Həsrət, torpaq uman səni,
Qaralayıb yaman səni,
Itirsə də zaman səni,
Yaz, yazdığın itən deyil.

## ÇƏK MƏNİM ÜRƏYİMİ

*Diş həkimi Nizamiyə*

Otuz iki dişimdən,
Bir dənəsi qalmayıb.
Mənim həkim qardaşım,
Bu mənə dərd olmayıb.

Həyat şahmat oyunu,
Gündə mənə mat verir.
Hər dəfə də ürəyim,
Otuz iki çat verir.

Mənim qəlbim ağrıyır,
Yandırır kürəyimi.
Alışdırır sinəmi,
Çək mənim ürəyimi.





## KƏLBƏCƏRDƏ

Ellər köçdü, tər bulaqlar,
Ağlar qaldı Kəlbəcərdə.
Toy-büsatlı, şən nəğməli,
Çağlar qaldı Kəlbəcərdə.

Lalələri al köynəyi,
Pıçıltısı dil göynəyi,
Çiçəkləri tel köynəyi,
Bağlar qaldı Kəlbəcərdə.

Dərələri dağ örpəkli,
Düzənləri bağ örpəkli,
Zirvələri ağ örpəkli,
Dağlar qaldı Kəlbəcərdə.

## ELƏ BİL

Dağlar ahmı çəkir, ildırım çaxır,
Sinəsindən qalxan tüstüdü, duman?
Həsrəti bulağa qarışıb axır,
Yanıq iyi gəlir göy buludlardan.
Sinəsindən qalxan tüstüdü, duman7

Ayaq izlərinə həsrət qalıbdı,
Cığırlar ağlayır bulaq başında.
Yağı, qartalları qaçaq salıbdı,
Sinəsi çat-çatdı burda daşın da.
Cığırlar ağlayır bulaq başında.

Çiçəklər əllərə həsrət saralır,
Dərilib düzülmür tellərə daha.
Illərdi boylana-boylana qalıb,
Bezibdi baxmaqdan yollara daha.
Dərilib düzülmür tellərə daha.

Elə bil bir az da qocalıb dağlar,
Qoynundan düşəli itgin, elləri.
Solub qucağında bağçalar, bağlar,
Qaşının üstündə qalıb əlləri.
Qoynundan düşəli itgin elləri.

Dur qardaş, əl-ələ, qol-qola verək,
O toylu-düyünlü çağlar eşqinə.
Düşməni palaz tək ayağa sərək,
Dağ çəkək yağıya dağlar eşqinə.
O toylu-düyünlü çağlar eşqinə.





## TƏRƏFƏ

Sağım divar, solum divar,
Çıxammıram bir tərəfə.
Gözlərimi toran tutur,
Baxammıram nur tərəfə.

Matam dünyanın sirrinə,
Acı çiləyir şirinə,
Göylərdən yağış yerinə,
Həsrət yağır hər tərəfə.

Yalan qara boya çəkə,
Həqiqətə düşməz ləkə,
Yüz yol yalvara, diz çökə,
Həsrət getməz şər tərəfə.

## BİLMƏDİM

Illər ömrün günlərini,
Çiçəktək dərdi, bilmədim.
Arzularım ümidimi,
Güdaza verdi, bilmədim.

Başıma yağış yağırdı,
Kimsə köməyə çağırdı,
Yüküm o qədər ağırdı,
Çəkdiyim nə idi, bilmədim.

Dərdi buta verib fələk,
Yolur məni lələk-lələk,
Yuxuda gördüyüm mələk,
Xeyidi-şərdi, bilmədim.

Başım üstdən qaçdı göylər,
Üstümə od saçdı, göylər,
Buludunu açdı göylər,
Üstümə sərdi, bilmədim.

Həsrəti, dost seçən dostlar,
Mənlə yeyib-içən dostlar,
Vaxtlı-vaxtsız köçən dostlar,
Mənə xəbərdi, bilmədim.





## HƏSRƏTİ

Yağıları daşa döndər,
Dərdlərini şərə göndər,
Mələklərin yerə göndər,
Sinəmizdən sil həsrəti.

Çəmənlərin güllərinə,
Dağ çayının sellərinə,
Yurdsuz qalan ellərinə,
Həsrət qoyma gəl, Həsrəti.

Əsir düşən yurd yandırır,
Yurdsuz ölən mərd yandırır,
Ürəyimi dərd yandırır,
Əllərimi əl həsrəti.

Çox salıbdı zaman şərə,
Ağlar axır Araz Kürə,
Bölünübdü neçə yerə,
Vətən qədər böl, Həsrəti.

Həyat dastan, nağıl deyil,
Dərdi-qəmi noğul deyil,
Demək, yaxşı oğul deyil,
Yaşatmasa el, Həsrəti.

## DƏRDİ AĞIRDI

Gül-çiçəkli bağı, yamyaşıl dağı,
Düzü itirməyin dərdi ağırdı.
Ata ocağında, ana yurdunda,
Közü itirməyin dərdi ağırdı.

Azad görmək üçün yurdu bir səhər,
Bir igiddi, bir qılıncdı, bir kəhər,
Bir dərdinə dözmək olar bir təhər,
Yüzü itirməyin dərdi ağırdı.

Çürüksə, toxumu əkməyə dəyməz,
Yalana baş əyib çökməyə dəyməz,
Əyrinin dərdini çəkməyə dəyməz,
Düzü itirməyin dərdi ağırdı.

Ulular bizimçün seçdiyi yolda,
Igidlər qılıncla açdığı yolda,
Atalar iz qoyub keçdiyi yolda,
Izi itirməyin dərdi ağırdı.

Həsrət sevgilisi közdü, şairin,
Ürəyi çox dərdə dözdü şairin,
Dövləti sərvəti sözdü, şairin,
Sözü itirməyin dərdi ağırdı.





## OXUYUN MƏNİ

Bir dağam, zirvəsi bulud çətirli,
Ömrümün dastanı çiçək sətirli,
Sevgi çiçəyiyəm vüsal ətirli,
Qoxuyun insanlar, qoxuyun məni.

Arasına lalə, nərgiz bələyib,
Ləçəyi üstünə jalə çiləyib,
Sözlərimi əriş-arğac eləyib,
Xalıya-xalçaya toxuyun məni.

Heç kəsin qəlbini anmasın həsrət,
Heç kəsin ömrünə qonmasın həsrət,
Özünü tək-tənha sanmasın, Həsrət,
Oxuyun insanlar, oxuyun məni.

## QORUYUR

Salam al salam alandan,
Kökünü yada salandan,
Əyridən, şərdən, yalandan,
Düzü mələklər qoruyur.

Vətənim, ana qucağı,
Canım, qanımdı torpağı,
Haq yerdə odu-ocağı-
Közü mələklər qoruyur.

Göyləri hərdən sal yada,
Göylərə bağlı dünyada,
Göylərdən gələn ilk səda-
Sözü mələklər qoruyur.

Baş əy, söykən düzünə,
Haqqı sipər et özünə,
Düz bax haqqın üzünə,
Gözü mələklər qoruyur.

Bölünmüşük xeyrə-şərə,
Bənzəyirik mələklərə,
Göylərdən enmişik yerə,
Bizi mələklər qoruyur.





## GƏNCƏDƏ

*Tələbə dostum Vəliyev Bayrama*

Qardaşım, qoynundan aralı düşdük,
Indi nə sən varsan, nə mən Gəncədə.
Yəqin yadındadır” iyirmialtılar”,
Hamı bir yerdəydi dünən Gəncədə.

Xoş günə qovuşub indi elləri,
Saçir hər tərəfə ətir gülləri,
Qara keşişlərin qara əlləri,
Çox saray qoyubdu viran Gəncədə.

Torpağı müqəddəs, uludu soyu,
Təmizdi havası, təmizdi suyu,
Başını dik saxla, əsrlər boyu,
Qeyrət zirvəsində duran Gəncədə.

Dörd payız, dörd bahar, dörd qış yaşadım,
Taledən qismətim varmış, yaşadım,
Alqış o torpağa, alqış yaşadım,
Nəbzi ürəyimdə vuran Gəncədə.

Söylə heç düşürmü şair yadına,
Haqq özü yetişsin darda dadına,
Kərəmtək alışıb eşqin oduna,
Neçə Həsrət yanıb görən Gəncədə?

## BİLMİRSƏNSƏ

Boyun əyri görünəcək,
Kölgən əyri sürünəcək,
Toz-torpağa bürünəcək,
Düz qədrini bilmirsənsə.

Dolacaq qəmlə qucağın,
Çoxalacaq dərdin-dağın,
Sönəcək tez-tez ocağın,
Köz qədrini bilmirsənsə.

Gözlərində yaş olacaq,
Göz yaşların daş olacaq,
Fəsillərin qış olacaq ,
Yaz qədrini bilmirsənsə.

Həyat sənə zor gələcək,
Hər ötən- yetən güləcək,
De qədrini kim biləcək,
Öz qədrini bilmirsənsə.

Həsrət, sanma bir xəzəldi,
Söz böyükdü, söz əzəldi,
Deməsən daha gözəldi,
Söz qədrini bilmirsənsə.





## MÜZADİL VAXTI

Saatdakı o gördüyün,
O dörd sıfır, o dörd düyün,
Aydınlığın, Yerin-Göyün,
Qara boyandığı vaxtdı.

Artıq bir anın qıymayan,
Zamandı, gözü doymayan,
Bizi yatmağa qoymayan,
Dərdin oyandığı vaxtdı.

Heç zaman olmur xəbərin,
Necə doğacaq səhərin,
Gecə yarı, xeyrin-şərin,
Qoşa dayandığı vaxtdı.

## DARIXMA

İmanın, dinin gəlibsə,
Nəfəsin, ünün gəlibsə,
Ruhun, bədənin gəlibsə,
Darıxma, baxtın da gələcək.

Bu dünya dediyin dörd divar,
Üstünə çəkibdi dərd divar,
Hərənin öz yeri, yurdu var,
Hərə öz taxtında gələcək.

Qoynunda itməyə tələsmə,
Daş olub bitməyə tələsmə,
Göylərə getməyə tələsmə,
Vaxtımız vaxtında gələcək.





## OLMALIDI

Həyat üçün arzuların,
Saçaq-saçaq olmalıdı.
Üşüyəndə isinməyə,
Isti qucaq olmalıdı.

Yaşamaynan ömrü hədər,
Haqlamamış qəza-qədər,
Nəyə gərək qüssə-kədər,
Səndən qaçaq olmalıdı.

Çəkdikcə dərd dönər dağa,
Ol dərdinə, Həsrət, ağa,
Adam kimi yaşamağa.
Oda-ocaq olmalıdı.

## SABAHIN YİYƏSİ

Hanı bunun qəbir daşı?
Hanı bunun yar-yoldaşı?
Qurumur gözünün yaşı,
Kimdi, bu ruhun yiyəsi?

Oyaq yuxu danışırsa,
Yalan doğru danışırsa,
Haqdan oğru danışırsa,
Hanı günahın yiyəsi?

Ürəklərdə çatır ocaq,
Göy üzündən daş yağacaq,
Mələkləri salıb qaçaq,
Kimdi, bu ahın yiyəsi?

Hamı bir gün, vaxt gələcək,
Haqq önündə diz çökəcək,
Ruhun xəcalət çəkəcək,
Nəfsin, tamahın yiyəsi.

Buludları qara geyir,
Yer-göy yenə qan-qan deyir,
Həsrətə sabahın xeyir-
Söylə, sabahın yiyəsi.





## TƏRƏF

Göydən yağır yerə çökən,
Vaxtdı beli əyən-bükən,
Pərvanəni nədi çəkən,
Alışan çırağa tərəf?

Aylar keçir, illər ötür,
Yerə düşən hər dən bitir,
Ağaclar göyə can atır,
Insanlar torpağa tərəf.

Ömür bir çiçək-üzülən,
Ayrılıq dərddi-dözülən,
Sevgidi söztək süzülən,
Dodaqdan dodağa tərəf.

Ömrümüzü zaman biçir,
Vaxtı tale özü seçir,
Torpağın qidası keçir,
Gövdədən budağa tərəf.

Həsrət, iş yazana qalıb,
Bilmirəm yaza, nə qalıb,
Əllərim uzana qalıb,
Qələmə, varağa tərəf.

## GÖY ÜZÜNƏ YAĞAN YAĞIŞ

Məzar üstdəki güllərdi,
Ölən dilsiz körpələrdi,
Göyə açılan əllərdi,
Göy üzünə yağan yağış.

Dillərdən qopan ahlardı,
Ah yaradan günahlardı,
Ulduz-ulduz ruhlardı,
Göy üzünə yağan yağış.

Gözdən itən baxışlardı,
Əl çatmayan naxışlardı,
Yerə yağan qarğışlardı,
Göy üzünə yağan yağış.

Ulduzları çiçək-çiçək,
Göz yaşıtək çilənəcək,
Bir gün yerə ələnəcək,
Göy üzünə yağan yağış.

Salacaqdı bizi qaçaq,
Sinəmizdə çatıb ocaq,
Yer üzünü yandıracaq,
Göy üzünə yağan yağış.





## BAX

Göz yaşları dönüb selə,
Dağı-daşı gəlir dilə,
Nə yatmısan, qardaş, belə,
Dur dünyanın işinə bax.

Köməksizə zor eləyir,
Eşidəni kar eləyir,
Görənləri kor eləyir,
Kor, dünyanın işinə bax.

Haqqı söylə haqdan yazan,
Dediyinə bir haqq qazan,
Xeyirinə quyu qazan,
Şər dünyanın işinə bax.

Bələkləri qan qoxuyur,
Ələkləri qan qoxuyur,
Küləkləri qan qoxuyur,
Gör dünyanın işinə bax.

Əsir düşmüş yurddan yazır,
Tələdəki qurddan yazır,
Həsrət, yenə dərddən yazır,
Bir dünyanın işinə bax.

## BAĞIŞLA

Yuxumu suya dedim,
Bilmirəm niyə dedim,
Qoşulub küyə dedim,
Sözüm, məni bağışla.

Könüllər araladım,
Ürəklər yaraladım,
Arxamca qaraladım,
Izim, məni bağışla.

Çox düzələn iş əydim,
Çox budağı yaş əydim,
Əyrilərə baş əydim,
Düzüm, məni bağışla.

Çox sifətə baxmısan,
Hədəqədən çıxmısan,
Şimşək kimi çaxmısan,
Gözüm, məni bağışla.

Yoluna çəkdim divar,
Dedim, Həsrət, haqqa var,
Mən özüməm günahkar,
Özüm, məni bağışla.





## ZÜLÜM OLACAQ

Ayaq altda qalan torpaq,
Varı talan olan torpaq,
Desəm olar yalan, torpaq,
Gəlmək də zülüm olacaq.

Analar yolur saçını,
Sinirmək olmur acını,
Dərdlərinin əlacını,
Bilmək də zülüm olacaq.

Bu qədər mərdin içində,
Dərd gəzir yurdun içində,
Kədərin, dərdin içində,
Gülmək də zülüm olacaq.

Ana torpaq, sinən dağlı,
Dərd içində sollu-sağlı,
Dərdlərini qolu bağlı,
Bölmək də zülüm olacaq.

Yada torpağı saxlasaq,
Bu qədər dağı saxlasaq,
Övlada, yağı saxlasaq,
Ölmək də zülüm olacaq.

## DAŞ OLMALIYIQ

O qədər hay-küy var eşitmək olmur,
Hay salıb hayqıran haqqın səsini.
Köməyə çağıran sızıltı səsi,
Döyür gözlərimin pəncərəsini.

Bulaqtək dağından sıza bilmirik,
Çiçəyi saralan, solan torpağın.
Qoynunda doyunca gəzə bilmirik,
Yağı tapdağında qalan torpağın.

Göylər ayazımır qara buluddan,
Bizi nə gözləyir bilmirik hələ.
Şimal küləyinin uğultusundan,
Daşlar da, quşlar da gəlibdi dilə.

Həmişə ucalıq yolunu seçib,
Hər zaman, hər yerdə baş olmalıyıq.
Vətəndən aralı düşməmək üçün,
Torpaq olmalıydıq, daş olmalıyıq.

Büllur bulaqların suyuna dönüb,
Qayalar qoynundan süzülməliyik.
Bu yurdu, Vətəni qorumaq üçün,
Sərhəd dirəyitək düzülməliyik.





## FIRLANIRAM

Qəmdən çəkdin tay ürəyim,
Oldun qəmə pay ürəyim,
Bir az da döz ay ürəyim,
Döz, başına fırlanıram.

Dərdə-qəmə açıb qucaq,
Dəstələyib saçaq-saçaq,
Ürəyimdə çatıb ocaq,
Köz başına fırlanıram.

Yeməyimi şor eləyən,
Ağrıları qor eləyən,
Qaş düzəldən kor eləyən,
Göz başına fırlanıram.

Baş əymişəm hər düzünə,
Ağ olmadım söz üzünə,
Sığal çəkib üz-gözünə,
Söz başına fırlanıram.

Yaralarım göz eləyib,
Bunu yaman göz eləyib,
Öz-özümü duz eləyib.
Öz başıma fırlanıram.

## ÖZÜMÜZDƏN

Həsrət yağır, kədər çökür,
Üzümüzə üzümüzdən.
Tüstü nurdan betər çökür,
Közümüzə közümüzdən.

Fikirimiz çözələnmir,
Heç boynumuz düzələnmir,
Gülüş qonmur, nur ələnmir,
Gözümüzə gözümüzdən.

Yük çəkirik ağır-ağır,
Kürəyimiz olur yağır,
Daş tökülür, qaya yağır,
Izimizə izimizdən.

Qəlbimizə od süzülür,
Dilimizə öd süzülür,
Dərd üstündən dərd süzülür,
Sözümüzə sözümüzdən.

Həqiqəti yalan yeyir,
Həsrət, düzü əyri əyir,
Yadlardan çox dəyən-dəyir,
Özümüzə özümüzdən.





## QAĞA

Qurub içimizdə bardaş bazarlar,
Olub dərdimizə sirdaş bazarlar,
Xoşuma gəlməyir, qardaş, bazarlar,
Qiymət bir qoyulur şor ilə yağa,
Dünya düzəlməyir, a Gündüz qağa.

Alçaq, qapılardan alçalıb keçir,
Yaltaq, yaltaqlara əl çalıb keçir,
Sağ əl tutanları sol çalıb keçir,
Kömək, imdad yoxdu sol əldən sağa.
Dünya düzəlməyir, a Gündüz qağa.

Haqq deyib hayqırdım, haqqa boyandım,
Mənə gəl-gəl deyən səsə oyandım,
Gecəyə söykənib bir an dayandım,
Durmuşdum divarla qabaq-qabağa.
Dünya düzəlməyir, a Gündüz qağa.

Hayana baxıram hər tərəf qardı,
Məni öz kökümdən tufan qopardı,
Saqqalım ağardı, saçım ağardı,
Təsəlli verdilər qar yağar dağa.
Dünya düzəlməyir, a Gündüz qağa.

Bir an oxşamadı uğur başımı,
Həsrətin əlləri sıxır başımı,
Illərdi əyilməz məğrur başımı,
Zaman yavaş-yavaş əyir torpağa.
Dünya düzəlməyir, a Gündüz qağa.

## QORU

Mənə tale yazan, baxt yazan sənsən,
Verdiyin, bu ömrə vaxt yazan sənsən,
Ömrümə-günümə taxt yazan sənsən,
Taxtımı fitnədən, kələkdən qoru.

Dağıt zirvələrdən dumanı, çəni,
Gözündən salmasın göylərin məni,
Düzlərin düz yerə səpdiyi dəni,
Əyri əllərdəki ələkdən qoru.

Yayındır zirvədən şimşəklərini,
Vurmasın dağların çiçəklərini,
Lalənin, nərgizin ləçəklərini,
Çovğundan, borandan, küləkdən qoru.

Qıyma ki, boş qalsın ana qucağı,
Qıyma od bürüsün bağçanı-bağı,
Bu yurdu, bu eli, ulu torpağı,
Kədər-qəm gəzdirən mələkdən qoru.

Dağında, düzündə yaratdığını,
Bütün yer üzündə yaratdığını,
Bircə “ol” sözündə yaratdığını,
Sənə şərik çıxan fələkdən qoru





## ELƏYİN

A dostlarım, əlbir olun,
Nə etsəniz, bir eləyin.
Qoy eşitsin ellər sizi,
Səsinizi gur eləyin.

Haya gəlin axın-axın,
Düşmənləri oda yaxın,
Yurdumuza kəc baxanın,
Gözlərini kor eləyin.

Nəfsi, gözü doymayanı,
Qəmi-dərdi duymayanı,
Ağsaqqalı saymayanı,
El içində xar eləyin.

Uzaq olun şər adamdan,
Uşaq kimi kür adamdan,
Ocaq olmaz hər adamdan,
Pir olanı pir eləyin.

Ömrün-günün şər çağında,
Yoxam ata ocağında,
Şiş Təpənin qucağında,
Həsrətə də yer eləyin.

## GƏLMƏMİŞƏM

Bu dünyaya, bu dünyanın,
Düz vaxtında gəlməmişəm.
Ya gecdi, ya tələsmişəm,
Öz vaxtında gəlməmişəm.

Yelkənsiz qalan qayıqdı,
Sinəsi oyuq-oyuqdu,
Göy  soyuqdu, yer soyuqdu,
Yaz vaxtında gəlməmişəm.

Dərdin varsa özünə de,
Baxan yoxdu üzünə, de,
Şair Həsrət, sözünə de,
Söz, vaxtında gəlməmişəm.





## QALACAQ

Ilahiyə borcumuz var,
Can veribdi, can alacaq.
Üstümüzdən əzdiyimiz,
Qarışqalar yol salacaq.

Çox əsibdi küləkləri,
Aha tutma fələkləri,
Alnımıza mələkləri,
Nə yazıbsa o olacaq.

Qoynu olub talan-talan,
Yox dərdinə çarə qılan,
Bu dünyada, Həsrət, yalan,
Qalsa, ondan söz qalacaq.

## YAZIM MƏNİM

Çiçəkləri al geyinib,
YaralanıbYazım mənim.
Alnımdakı oxunmayır,
Qaralanıb yazım mənim.

Həsrəti yurddu, torpaqdı,
Bu da bir tale, qədərdi.
Göz yaşı da bir yarpaqdı,
Payızı dərddi, kədərdi.

Dan orda elsiz sökülür,
Dağların beli bükülür,
Qəm cücərir, dərd göyərir,
Hara göz yaşı tökülür.

Vəfalıymış, bu torpağın,
Qayası-daşı bizdən.
Şer yazmaqdan savayı,
Heç nə gəlmir əlimizdən.





## YOXDU

Döyüş meydanıdı bilirəm dünya,
Burda yaşamağın qaydası yoxdu.
Hal-əhval tutan yox, zəng eləyən yox,
Niyə birinizin sədası yoxdu.

Hələ yaşayıram sağam axtarın,
Gülşəni söz dolu bağam, axtarın,
Qoynu bənövşəli dağam, axtarın,
Dosta can deməyin qadası yoxdu.

Əcəl aranızdan seçəndən sonra,
Ölüm şərbətini içəndən sonra,
Bir gün aranızdan köçəndən sonra,
Həsrəti gəzməyin faydası yoxdu.

## GƏLMİŞƏM

Burda hər yan qaranlıqdı,
Görəsən hara gəlmişəm?
Mən işıq istəyirəm,
Bu rəngdən zara gəlmişəm.

Ilk dəfədir gəlləm guya,
Özüm vurdum oda-suya,
Gördüm ki, bu dünyaya,
Özümdən sonra gəlmişəm,

Günahlarım eləyin əhv,
Insantək ölmək bir şərəf,
Gedirəm göylərə tərəf,
Mən ordan yerə gəlmişəm.

Yat-yat, oyadan deyiləm,
Daşdan-qayadan deyiləm,
Gözləmə qayıdan deyiləm,
Uzun səfərə gəlmişəm.

Əl-qolumu aç gedirəm,
Qabağımdan qaç, gedirəm,
Ağ paltar, ağ saç gedirəm,
Lüt, saçı qara gəlmişəm.





## QUCAQLA MƏNİ

Endirməynən ağ atımdan,
Ayırma xoş həyatımdan,
Qaldır ayağın altından,
Əzizlə, sığalla məni.

Yazı sənin, istək sənin,
Bəndən hanı məntək, sənin,
Əl mənim, ətək sənin,
Ətəyinə bağla məni.

Sən də təksən, mən də təkəm,
Bu ağılda bəndə təkəm,
Qıyma yurd həsrəti çəkəm,
Sınama ocaqla məni.

Qarışıbdı haram-halal,
Mələklərindən xəbər al,
Qurban olum yadına sal,
Hərdən bir soraqla məni.

Nə görürsən gör üzündə,
Bu dünyanın şər üzündə,
Üşüyürəm Yer üzündə,
Allahım, qucaqla məni.

## UTANIRAM

O dağların zirvəsində,
Uçan quşdan utanıram.
Ellərinə həsrət qalan,
Dağdan-daşdan utanıram.

Kişi, yağı dağlamalı,
Kişi, qılınc bağlamalı,
Kişi, niyə ağlamalı?
Gözdə yaşdan utanıram.

Düçar olduq nəs illərə,
Dərd gətirdi nəsillərə,
Baxammıram fəsillərə,
Yazdan, Qışdan utanıram.

Hər üzdən gülüş yağardı,
Hər üzdə günəş doğardı,
Deyirlər nə tez ağardı?
Bəyaz saçdan utanıram.

Haqqı haqsız yeyildikcə,
Söyüldükcə, döyüldükcə,
Hər ötənə əyildikcə,
Həsrət, başdan utanıram.





## QARDAŞ

*Səfialının ad gününə*

Bu Yaz, yaşın oldu doqquz vuraq beş,
Gün olsun on vuraq on olsun, qardaş.
Arzuna çatdırsın Yaradan səni,
Bütün istəklərin çin olsun, qardaş.

Gəlsin eyvanından qaranquş səsi,
Könlünü oxşasın bülbül nəğməsi,
Nəvə-nəticənin körpə nəfəsi,
Bənövşə ətrinə tən olsun, qardaş.

Viran olmuş oba, yurd görməyəsən,
Qolları çatılmış mərd görməyəsən,
Azar görməyəsən, dərd görməyəsən,
Kədər ürəyindən gen olsun, qardaş.

Adın başda olsun mərd sırasında,
Başın uca olsun dost arasında,
Qəm yaşı olmasın göz qarasında,
Gülər üzün hər an şən olsun, qardaş.

Kişini yaşadan sevgidi, eşqdi,
Sevgisiz həyatın axırı heçdi,
Həsrətin qəlbini bir baxış deşdi,
Istəmərəm kimsə mən olsun, qardaş.

## BÜKƏRSİNİZ

*Övladlarıma*

Bu torpağa tapşıranda,
Məni gülə bükərsiniz.
Geri qayıdan deyiləm,
Elə-belə bükərsiniz.

Gözlərimi bağlamayın,
Ürəkləri dağlamayın,
Haray salıb ağlamayın,
Gülə-gülə bükərsiniz.

Yaşatmaqçün izlərimi,
Mənsiz gəzin düzlərimi,
Məndən sonra sözlərimi,
Şirin dilə bükərsiniz.





## SAVAYI

Bu dünyada qazancın nə,
Həsrət, günahdan savayı.
Ruhuna nə vermisən,
Nalədən-ahdan savayı.

Bir doğru ahəng görmədin,
Haqq yolunda cəng görmədin,
Qeyri bir rəng görmədin,
Ağdan, siyahdan savayı.

Gülə-gülə gələn yoxdu,
Ölümünü bölən yoxdu,
Heç sirrini bilən yoxdu,
Bircə Allahdan savayı.

## QALACAQ

Zirvələrin şahı qartal,
Sənə, bu dağlar qalacaq.
Bürüyəcək duman-çisgin,
Çənə, bu dağlar qalacaq.

Tər bulaqlı, xoş guşəli,
Göy talalı, bənövşəli,
Yeri-göyü əndişəli,
Yenə, bu dağlar qalacaq.

Təbiətdən varım çoxdu,
Gözüm-könlüm elə toxdu,
Umacağım heç nə yoxdu,
Mənə, bu dağlar qalacaq.





## ARASINDA

Xainlərə nur verməyin,
Hər ötənə sirr verməyin,
Yaxşılara yer verməyin,
Yamanların arasında.

Bir vədəsiz köç olmasın,
Arzularım heç olmasın,
Ümidlərim puç olmasın,
Gümanların arasında.

Saç-saqqalım indi ağdı,
Qar başıma vaxtsız yağdı,
Həsrət, həsrət boyda dağdı,
Dumanların arasında.

# ELƏ SEVƏRDİM Kİ...





## İSTİSİNƏ

Sinəm oldu çiçək-çiçək,
Əllərinin istisinə.
Barmaqlarım ləçək-ləçək,
Tellərinin istisinə.

Kölgən olub sürünmüşəm,
Hey gözünə görünmüşəm,
Üşüyəndə bürünmüşəm,
Dillərinin istisinə.

Sən, Həsrətin ömür yolu,
Sənsiz sınar əli-qolu,
Ölməz, yaşar vüsal dolu,
Illərinin istisinə.

## HARDADI

Dodaqlar allanıb qönçələr kimi,
Yanaqlar ballanıb pətəklər kimi,
Tapılsa bir nəfər xətrinə dəyən,
Göz yaşı süzülür ləçəklər kimi.
Yoxdu tellərinə çiçəklər hörən.
Bu qızın, qisməti hardadı görən?

Döyür ürəyini həsrət küləyi,
Sevgiylə doludu təmiz ürəyi,
Düşüb gözlərindən yuxusu pərən,
Təklikdən darıxır sevgi mələyi.
Belə gözəlliyi yoxdumu görən,
Bu qızın, qisməti hardadı görən?

Kim düzüb bəxtinin yoluna qaya,
Dili həsərət qalıb şirin laylaya,
Həsrət qundağıdı qolunu yoran,
Qəlbində məhəbbət, üzündə həya.
Günəş camalını bürüyür toran,
Bu qızın, qisməti hardadı görən?





## ÇAĞIRIR

Atlan könül, dağlar yaşıl don geyib,
Güllər, məni, qucağına çağırır.
Nəriltisi qartalları susduran,
Sellər, məni, qucağına çağırır.

Sinəsindən qıraqlayıb hördüyüm,
Kitab kimi varaqlayıb hördüyüm,
Əllərimlə daraqlayıb hördüyüm,
Tellər, məni, qucağına çağırır.

Qucağında izimizi yaşadan,
Eşqimizi, sevgimizi yaşadan,
Yaddaşında izimizi yaşadan,
Illər, məni, qucağına çağırır.

Bir söz ilə məni yoldan əyləyən,
Sən mənimsən, mən səninəm söyləyən,
Ürəyimi dilim-dilim eyləyən,
Dillər, məni, qucağına çağırır.

Həsrət, yetər həsrət ilə yandığım,
Gecə-gündüz yana-yana andığım,
Istisini ana hənri sandığım,
Ellər, məni, qucağına çağırır.

## ÖLMƏZMİYƏM

Həsrətimdən ağlar olsan,
Göz yaşını silməzmiyəm.
Bir təbəssüm bəxş eləsən,
Bir ömürlük gülməzmiyəm.

Sənsiz keçən hər an, hər gün,
Qollarıma vurur düyün,
Eşq ucundan yerin-göyün,
Nə çəkdiyin bilməzmiyəm.

Sənsiz ötür ürək dil-dil,
Sənsiz ömür gərək deyil,
Mələklər tək göyə çəkil,
Sən gəl desən, gəlməzmiyəm.

Doğra, məni, qıyma-qıyma,
Qadanalım, yalqız qoyma,
Həsrətinə belə qıyma,
Həsrətindən ölməzmiyəm.





## ÜRƏYİMDƏN

Yanaqları qoşa xallı,
Göyçək keçir ürəyimdən.
Bu istəyin yalanı yox,
Gerçək keçir ürəyimdən.

Vədəsində dərmədiyim,
Sinəm üstə sərmədiyim,
Illərdi ki, görmədiyim,
Çiçək keçir ürəyimdən.

Sevgimizlə hey öyünən,
Eşqimizdən don geyinən,
Ürəyimlə bir döyünən,
Ürək keçir ürəyimdən.

## SƏN DEMƏ

Bu Yaz qonaq oldum bizim dağlara,
Təmiz havasını çəkdim sinəmə.
Duman çətirini çəkdi üstümə,
Dağlar məni unutmayıb sən demə.

Paltarları yaşıl donlu meşədi,
Bulaqların gözü sanki şüşədi,
Ayağıma çəmən xalı döşədi,
Dağlar məni unutmayıb sən demə.

Sinəsində izlərimdən tanıdı,
Həsrət dolu gözlərimdən tanıdı,
Salam verdim, sözlərimdən tanıdı,
Dağlar məni unutmayıb sən demə.





## GÖZÜMDƏN DÜŞÜB

*Ilham Qaracaəmirliyə*

Dağlar mənim yaman dəyib xətrimə,
Düz də düşüb, çöl də düşüb gözümdən.
Çəmənindən, çiçəyindən küsmüşəm,
Yaz da düşüb, gül də düşüb gözümdən.

Könlüm bir an ayrılmayır adından,
Daş asılıb yaddaşımın yadından,
Ilk sevgimin-nakam eşqin odundan,
Köz də düşüb, kül də düşüb gözümdən.

Həsrətini ürəyimə sıxıram,
Sevilməkdən, sevməkdən də qorxuram,
Nə gözlərə, nə tellərə baxıram,
Göz də düşüb, tel də düşüb gözümdən.

Ağac kimi yollarında bitdiyim,
Eşqi ilə bülbül olub ötdüyüm,
Izlərinin arxasınca getdiyim,
Iz də düşüb, yol da düşüb gözümdən.

Sancılıbdı sinəsinə ox, şair,
Həsrət, indi məcnunlara oxşayır,
Ürəyimi nə söz-nə dil oxşayır,
Söz də düşüb, dil də düşüb gözümdən.

## BU SEVGİ

Elə sevirdim ki, elə bilirdim,
Nə göydə var, nə də yerdə, bu sevgi.
Elə sevirdim ki, elə bilirdim,
Məni salmayacaq dərdə, bu sevgi.

Bir ömür gülmədi üzümə heç nə,
Heç oldu, qalmadı özümə heç nə,
Heç nə görünmürdü gözümə, heç nə,
Çəkmişdi üzümə pərdə, bu sevgi.

Həsrəti sinəmdə çatıbdı ocaq,
Həsrəti, yandırır dərd saçaq-saçaq,
Hər şey qayıdacaq geriyə, ancaq,
Geri dönməyəcək bir də, bu sevgi.





## AY İŞIĞINDA

Sübhədək nazını çəkim doyunca,
Ləçək dodaqların büksün dilimi.
Uyuyaq beləcə Günəş doğunca,
Çiçəyə bürünmüş arılar kimi.

Bir anlıq unudaq kədəri, qəmi,
Eşqin səmasında dolaşaq qoşa.
Heç nə gizlətməyən bəyaz tül kimi,
Külək üstümüzdən sürüşüb düşə.

Verək qəlbimizi dodağa-dilə,
Uyaq məhəbbətə Ay işığında.
Üz-üzə, qol-qola dil-dodaq ilə,
Yuyaq üzümüzü Ay işığında.

## AXTARIRAM

Gözümün ilk ovu düşüb yadıma,
Qışın ortasında Yaz axtarıram.
Elə bil ötməyib ömür yarıdan,
Uyumur, dincəlmir göz axtarıram.

Qəlbimə çox dedim, bu yoldan daşın,
Fərqinə varmadı gözümdə yaşın,
Düşüb arxasınca on yeddi yaşın,
Dağların qoynunda iz axtarıram.

O çağlar qalıbdı çox-çox uzaqda,
Həsrəti uyuyur indi qucaqda,
Qırx il bundan əvvəl sönən ocaqda,
Hənir axtarıram, köz axtarıram.

Illərin qoynunda itən keçmişi,
Sinəmdə kök atıb bitən keçmişi,
Geri səsləməyə ötən keçmişi,
Ümidlə sehirli söz axtarıram.

Tapmıram əlimlə götürdüyümü,
Görmürəm qəlbimdə bitirdiyimi,
Deyirsən gəzirsən itirdiyimi,
Ay Həsrət, deyəsən az axtarıram.





## GƏZİRSƏN

Bilirsənmi nisgil olub, qəm olub,
Qollarımın arasında gəzirsən.
Baxışınla para-para etdiyin,
Ürəyimin yarasında gəzirsən.

Sinəm üstə sənsiz dağlar çəkilib,
Şən üzümə qüssə-kədər əkilib,
Yatammıram, yuxum ərşə çəkilib,
Gözlərimin qarasında gəzirsən.

Həsrət qalıb əlim siyah tellərə,
Məhəbbətim məni salıb dillərə,
Sən, Həsrəti, özün salıb çöllərə,
Dəlilərin sırasında gəzirsən.

## NAZA BAX

Mələkdimi, insandımı o gedən,
Yollar çat-çat olur naza bax, Allah.
Təbiət məst olub, ayaqlarına,
Gül-çiçək döşəyir Yaza bax, Allah.

Bu yoldan ötməyib hələ beləsi,
Qucub yanağını telin haləsi,
Ölməmişin gözlərinin şöləsi,
Elə bil çıraqdı gözə bax, Allah.

Yerimir, eləcə axır çay kimi,
Bərq vurur sifəti Günəş, Ay kimi,
Bəlkə göndərmisən mənə pay kimi,
Baxa bilmədiyim üzə bax, Allah.

Gözlərim dalınca üzülüb düşür,
Göz yaşım muncuqtək düzülüb düşür,
Ürəyim əriyir, süzülüb düşür,
Sinəmi yandıran közə bax, Allah.

Yanaqlar al donlu laladı keçir,
Canımı odlara qaladı, keçir,
Sənin yaratdığın bəladı keçir,
Həsrəti öldürən qıza bax, Allah.





## ELLƏRDƏN YANA

*Dostum Şahbaza*

Elə darıxıbdı ürəyim, qardaş,
Çiçəklərdən yana, güllərdən yana.
Inan ki, burnumun ucu göynəyir,
O dağlardan yana, çöllərdən yana.

Qırx ildi sehrinə düşmüşəm əsr,
Qırx ildi həsrəti səbrimi kəsir,
Gözlərim yol çəkir, ürəyim əsir,
Gül-çiçək düzdüyüm tellərdən yana.

Vurnuxur içimdə nakam bir istək,
Sinəmdə çırpınır, döyünür ürək,
Sübh mehi tərpədən gül ləçəyitək,
Əllərimdə əsən əllərdən yana.

Qoşa gəzdiyimiz çöllərim yanır,
Izlərim tək qalıb, yollarım yanır,
Həsrətin qucmaqdan qollarım yanır,
Könlümü oxşayan dillərdən yana.

Başımın üstündən çəkilmir duman,
Imanım yüz yerə sürüyür güman,
Yaman darıxıram, ay Şahbaz, yaman,
Həsrətə ruh verən ellərdən yana.

## HƏSRƏTİN

Illərdi görmürük bir-birimizi,
Bizə görüşməyi qıymır həsrətin.
Nələrdən keçməzdim bir görüş üçün,
Qəlbimdən keçəni duymur həsrətin.

Illərdi üstümə yağır qar kimi,
Əsir başım üstdən rüzgar kimi,
Yeyir ürəyimi canavar kimi,
Yorulmur həsrətin, doymur həsrətin.

Qurtara bilmirəm qəmindən yaxa,
Çevirmək olmayır keçmişə arxa,
Elə bezdirib ki, Həsrəti, daha,
Ölərdim, ölməyə qoymur həsrətin.





## KİMİ

Illər ötür, saçlarım,
Ağarıbdı qar kimi.
Kimi günahlandırım,
Indi günahkar kimi.

Dərdimdi dönür külə,
Göz yaşlarım gilə-gilə,
Həsrətinin əllərilə,
Dənələnir nar kimi.

Bir dağam səndən ayrı,
Dumandan, çəndən ayrı,
De görüm səndən ayrı,
Həsrətinin var kimi?

## QALIBDI

Bala Kəhriz, başın üstdə bilirsən,
Neçə qəlbin odu-közü qalıbdı.
Istəyinə qovuşubdu neçəsi,
Neçəsinin ürək sözü qalıbdı.

Çox atəşi söndürübdü suların,
Bir dastandı cığırların, yolların,
Neçəsinin səhəng qucan qolların,
Arxasınca iki gözü qalıbdı.

Həsrətilə qəlbim hələ sızlayır,
Səhər-axşam yollarını izləyir,
Başın üstdə sevgisini gözləyir,
Daşa dönüb, Həsrət, özü qalıbdı.





## QARATELLİ

Səni gözləməkdən daşa dönmüşəm,
Məni dindirsənə, ay qaratelli.
Doldur səhəngini çeşmə gözümdən,
Göz yaşlarım olub çay, qaratelli.

Dolaynan boynuma barı tellərin,
Yarı qollarını, yarı tellərin,
Vurğunu olmadım sarı tellərin,
Yoxdu tellərinə tay, qaratelli.

Sevən ürəyimə verginən aman,
Başının üstündən çəkilsin duman,
Həsrətin üşüdür, Həsrəti, yaman,
Tellərin sinəmə yay, qaratelli.

## HƏSRƏTİNİ

Xəbərin yox, gəzdiyimiz,
Çöl də çəkir həsrətini.
Qönçə-qönçə üzdüyümüz,
Gül də çəkir həsrətini.

Bircə sənsən məni üzən,
Tək mənəmmi səni gəzən,
Tellərinə çiçək düzən,
Əl də çəkir həsrətini.

Ayaqlara özün sərən,
Ömrümüzə düzüm verən,
Hər gün bizi qoşa görən,
Yol da çəkir həsrətini.

Ürəyimdə saçaqlayan,
Ürəyimi ocaqlayan,
Həsrətini qucaqlayan,
Qol da çəkir həsrətini.

Gəl, Həsrətin yorulubdu,
Ürəyimə qor dolubdu,
Sən gedəli lal olubdu-
Dil də çəkir həsrətini.





## DÜŞÜR

Birinin bəxtinə dərd,
Birinə nəşə düşür.
Məhəbbət olan yerdə,
Dərdə əndişə düşür.

Biri varmış, biri yoxların,
Nəyi var diri yoxların,
Sevgidən varı çoxların,
Yolları hey daşa düşür.

Qəlbim sevgi köynəyində,
Yanır eşqin göynəyində,
Hər dəfə Həsrət deyəndə,
Yadıma bənövşə düşür.

## YAZIMMI

*M. üçün*

Deyirsənki mənə şeir yazmırsan,
Xalın yüz şeirə taydı yazımmı?
Həsrətin çəkməkdən üzülüb canım,
Sənsiz keçən ömür zaydı yazımmı?

Adın çiçək açıb dilimin üstdə,
Yandırıb gəzirsən külümün üstdə,
Ölüncə saxlaram əlimin üstdə,
Qaşların bir parça Aydı yazımmı?

Eşqə köklənibdi, o hallı dodaq,
Qızılgül qönçəsi, o ballı dodaq,
Qismətim deyilmiş o xallı dodaq,
Həsrətə həsrətin paydı yazımmı?





## O SİNƏDƏ

Yaradanım, nolar məni,
Tülə döndər o sinədə.
Əllərimi dəstələyib,
Gülə döndər o sinədə.

Yanağında oraqlanan,
Qucağında daraqlanan,
Kitab kimi varaqlanan,
Telə döndər o sinədə.

Əlim çatmır nazlı yara,
Hicran məni çəkir dara,
Susuz yanan dodaqlara,
Dilə döndər o sinədə

Söndür qəlbim göynəyini,
Üzüm gülün göyçəyini,
Düymələyim köynəyini,
Ələ döndər o sinədə.

Dözmək olmur daha belə,
Göz yaşlarım dönüb selə,
Həsrətini Kərəm elə,
Külə döndər o sinədə.

## O DAĞLARDA

Allah, eşqə qurban elə,
Gətir məni o dağlarda.
Çisgin elə, duman elə,
Ötür məni o dağlarda.

Bəlkə bir gün görən oldu,
Əzizləyib dərən oldu,
Tellərinə hörən oldu,
İtir məni o dağlarda.

Ömrün-günün gənc çağında,
Yandım eşqin ocağında,
Çiçəklərin qucağında,
Bitir məni o dağlarda.





## AĞLAYIRMI

Uca dağlar, ildırımlar,
Sinənizi dağlayırmı?
El qızları çiçəklərdən,
Yenə çələng bağlayırmı?

Darıxırmı yaylaqların,
Gül-çiçəkli oylaqların,
Zümzüməli bulaqların,
Həzin-həzin çağlayırmı?

Sizə çəkir ürək məni,
Yaman edib kövrək məni,
Dərmədiyim çiçək məni,
Həsrət deyə ağlayırmı?

## SEVGİDƏN AYRI

Susuz bir quyudu sevgisiz həyat,
Gözlərimdə ölür, sevgidən ayrı.
Dağlayır içimi qılınctək həsrət,
Ürəyimi bölür, sevgidən ayrı.

Umursan umduğun bilmirəm nədi,
Baxdım gözlərinə gözüm göynədi,
Yoxdu bu dünyanın sevgisiz dadı,
Sevgi özü ölür, sevgidən ayrı.

Qoynunu özümə yuva bilərəm,
Nəfəsin dərdimə dəva bilərəm,
Uzağı mən səni sevə bilərəm,
Əlimdən nə gəlir, sevgidən ayrı.





## YORULUB

Nə əllərim çatır, nə ünüm sənə,
Səni səsləməkdən dilim yorulub.
Izimin yanından pozulub izin,
Səni axtarmaqdan yolum yorulub.

Gözlərin düşübdü gözümdən uzaq,
Başım üstdən əsən həsrətin-sazaq,
Bu dərdin adını haraya yazaq,
Xəyalın qucmaqdan qolum yorulub.

Eşqini kimləsə bölə bilmirəm,
Kimsənin üzünə gülə bilmirəm,
Həsrətin dərdindən ölə bilmirəm,
Məni gözləməkdən ölüm yorulub.

## QALMIŞAM

Çıxmır xəyalımdan qara tellərin,
Daraqlaya-daraqlaya qalmışam.
Birgə keçən o illəri kitabtək,
Varaqlaya-varaqlaya qalmışam.

Gözlərimdən ayrı düşüb gözlərin,
Izlərimdən ayrı düşüb izlərin,
Səni gəzən yolçusuyam düzlərin,
Soraqlaya-soraqlaya qalmışam.

Nə desin ki, Həsrət, fikir birdimi,
Məhəbbətin göynətdiyi sirdimi,
Həsrətinin göyərtdiyi dərdimi,
Oraqlaya-oraqlaya qalmışam.





## HAVALANIB

Yurdumuza bahar gəlib,
Çöllər yenə havalanıb.
Yatağına sığmır sular,
Sellər yenə havalanıb.

Qönçələri geyibdi al,
Boğazında yaşıldan şal,
Bülbülləri çəkir sığal,
Güllər yenə havalanıb.

Budaqlara şeh düzülür,
Çiçəkləri tər üzülür,
Dodaqlardan bal süzülür,
Dillər yenə havalanıb.

Lalələri işıq saçan,
Çəmənləri ürək açan,
Bənövşələr çiçək açan,
Tellər yenə havalanıb.

Sinəsinə çiçək düzən,
Naz-qəmzəsi ürək üzən,
Qurşanmağa kəmər gəzən,
Bellər yenə havalanıb.

## SƏSİNƏ

Ilahi don geyindirib,
Abır-həyadan səsinə.
Ətrafını Günəş kimi,
Əlvan boyadan səsinə.

Dünyaya yaya biləydim,
Eşidib doya biləydim,
Kaş heykəl qoya biləydim,
Daşdan, qayadan səsinə.

Qəlbində ocaq çatacaq,
Həsrət, həsrəti atacaq,
Gülüm, bürünüb yatacaq,
Onu oyadan səsinə.





## SEVGİDİ

Bu dünyada bizi sevgi yaşadır,
Ağladan da, güldürən də, sevgidi.
Göz yaşımız elə-belə süzülmür,
Ələyən də, sildirən də, sevgidi.

Kərəmləri oda salıb yandıran,
Məcnunlara səhraları andıran,
Fərhadların külüngünü sındıran,
Qayaları dəldirən də sevgidi.

Heçdi keçən bircə an da, sevgisiz,
Ruh yaşamaz bir an canda, sevgisiz,
Nə var, Həsrət, bu cahanda sevgisiz,
Yaradan da, öldürən də, sevgidi.

## ADSIZ CEYRANA

Daşı danışdıran şirin dilinlə,
Adsız bir şeir yaz dedin, a ceyran.
Kimsə bilməsə də, mən ki, bilirəm,
Qəlbimdə bitibdi adın, a ceyran.

Gözlərin gözümdə çiçək açacaq,
Üzümə ləçəkli yağış yağacaq,
Hicranın sinəmdə çatıbdı ocaq,
Yandırır qəlbimi odun, a ceyran.

Həsrətin qoymur ki, dincələ ürək,
Canımı verərdim olsaydı gərək,
Səpərdim yoluna qanımı sutək,
Əgər olmasaydın yadın, a ceyran





## BİR EŞQİN YOLUNDA

*Gündüz:- Niyə məhəbbətdən yazmırsan?*

Bir eşqin yolunda itib qarası,
Saralıb gözümün ağı yazımmı?
Göynədir içimi qəlbin yarası,
Qalmayıb salamat bağı yazımmı?

Nə üçün sevirik hələ bilmirik,
Alışıb dönürük külə bilmirik,
Necə sevmişik ki, ölə bilmirik,
Diri qalanlara ağı yazımmı?

Dağlayır sinəmi həsrətin əli,
Alışan gözümün göz yaşı külü,
Adını çəkdikcə alışan dili,
Yandırır qəlbimin yağı yazımmı?

Hələ yaşayıram, yaman üzüm var,
Harda qəm-kədər var, orda izim var,
Qırx ildi nə gecəm, nə gündüzüm var,
Qırx ildi yandırır dağı yazımmı?

Həsrəti həsrətin qolları qucub,
Vüsal ünvanımı çoxdan unudub,
Bir eşqin yolunda dağılıb, uçub,
Ömür sarayımın tağı yazımmı?

## QADASINDAN

Qismətimə həsrət düşüb,
Allah, sevgi odasından.
Imkan olsa yenə göndər,
Mənə onun qadasından.

Nisgil çatıb elə ocaq,
Canım yanır qucaq-qucaq,
Mələklərin düşüb qaçaq,
Ah-naləmin sədasından.

Dərdim bilə-bilə keçir,
Həsrət dönür külə keçir,
Zalım qızı, elə keçir,
Yol yarılır ədasından.





## BİR QIZ YAŞAYIR

O çılğın günlərdən çox illər ötüb,
Çoxdandı izimiz yollardan itib,
O gündən sinəmdə çiçək tək bitib,
Mənim ürəyimdə bir qız yaşayır.

Elə bil könlümün şahıdı getmir,
Vəfanın, ilqarın ahıdı getmir,
Ölən ilk eşqimin ruhudu getmir,
Mənim ürəyimdə bir qız yaşayır.

Gözümdən könlümə düşübdü izi,
Isidir ömrümü eşqinin közü,
Dağlar bənövşəsi, dağlar nərgizi,
Mənim ürəyimdə bir qız yaşayır.

Sındırdı könlümü bir nadan dili,
O gündən əlimdən üzüldü əli,
Çiyələk yanaqlı, şəlalə telli,
Mənim ürəyimdə bir qız yaşayır.

Dünyanın tərs işi güldürüb məni,
Həsrətin əlləri böldürüb məni,
Qırx il bundan əvvəl öldürüb məni,
Mənim ürəyimdə bir qız yaşayır.

# QEYDİYYAT

*Gündüz Miriyevə ithaf*

**POEMA**





## PROLOQ

Əvvəlcədən Bayıldakı danışdığımız yerə gəldik,
Çayxananın bir küncündə özümüzə yer elədik.
Çayxanaya məxsus olan qat-qarışıq səs-küy vardı,
Adamların sayı çoxdu, yerimizsə xeyli dardı.
Əməllicə boğulurduq siqaretin tüstüsündən,
Tənginəfəs oturmuşduq içərinin istisindən.
Gündüz, dönüb çaypaylayan oğlan ilə salamlaşdı.
Çayçı onun salamını alıb bizə yaxınlaşdı.
Çay paylayan, xeyli cavan, hündür boylu oğlan idi.
Gündüz, ona bizim üçün kəklikotu dəmlə dedi.
Birdən-birə dalğalandı çayxanada sazın səsi,
Bir od saldı ürəyimə "Sarıtelin" od nəfəsi.
Orta yaşlı bir aşıqdı xoş avazla gəldi dilə,
Sehrlədi ürəyimi bülbül kimi cəh-cəhilə.
Oxuduğu nəğməsini tamamlayıb susdu, aşıq,
Unutmuşdum, bu dünyanı, fikirlərim dor-dolaşıq.
Aşıq Fərman bir yaxın gəl; Gündüz ona əl elədi.
Tanış olduq, əl uzadıb şirin-şirin gülümsədi.
"Baş Divani" havasına bir divani oxu bizə,
Dedi: Gündüz, boylanırdı  çayxanada coxu bizə.
Zilini zil, bəmini bəm etdi sazın, aşıq Fərman.
Coşdu çaylar, daşdı sellər çayxanada qopdu tufan.
Gülüş qondu gülərüzlü Əlövsətin gözlərinə,
O da mən tək vurulmuşdu, bu aşığın sözlərinə.
Doğrudan da ustad idi, onu Allah yetirmrşdi,
Çayxanaya bizi yanğı, onu çörək gətirmişdi.

## MƏN KİMƏM

Yaranandan haqq yolçusu olmuşamsa mən kiməm?
Bir dərdlinin qayğısına qalmışamsa mən kiməm?
Sevincimi dostlar ilə bölmüşəmsə, mən kiməm?
Kimliyindən xəbərsizsən, mənə kimsən söyləyən,
Iç üzünü görmüşəmsə, bilmişəmsə, mən kiməm?

Sərvət, dövlət düşgünü, vara kölə olan var,
Yar-yoldaşa bir badalaq, dosta tələ olan var,
Zəli kimi yaşayan var, yurda şələ olan var,
Mədəsinə sənin kimi neçə kölə olan var,
Sənə oxşar olanlara gülmüşəmsə, mən kiməm?

El-obaya, yurd-yuvaya darda gərək olmuşam,
Yıxılana arxa-dayaq, yanan ürək olmuşam,
Alışana su olmuşam, aca çörək olmuşam,
Əyilən körpülərə sütun, dirək olmuşam,
Ağlayanın göz yaşını silmişəmsə, mən kiməm?

Səadəti, xoşbəxtliyi gəzməmişəm varda mən,
Bir oğultək məhəbbətlə bağlanmışam yurda mən,
Adı ilkin duam olub olmuşamsa harda mən,
Dostu-yarı, ömür boyu, qoymamışam darda mən,
Hay deyəndə harayına gəlmişəmsə, mən kiməm?

Yarasına sarğı olub hər an əlim, torpağın,
Yurd eşqiylə alışıram, odum- külüm, torpağın,
Sarılıbdı yarasına canım-dilim, torpağın,
Parça-parça, bölük-bölük, dilim-dilim torpağın,
Uğurunda ölənlərlə ölmüşəmsə, mən kiməm?

Sözlərini tamamlayıb əl gəzdirdi saza bir az,
Yenə göyə havalandı o şirin səs, o xoş avaz.





Gecəli-gündüzlü dəyirman kimi,
Bu çarxı fırladan fələkdi, kişi.
Arıdıb üyüdür bizi dən kimi,
Bu dünya xəlbirdi, ələkdi, kişi.

Həyat Nuh desə də peyğəmbər demir,
Əlində mum kimi əzilir dəmir,
Tanrının bizlərə verdiyi ömür,
Sağdan sola əsən küləkdi, kişi.

Dağıt düşmənlərin dağı başına,
Qoyma namərd qatsın ağı aşına,
Kişinin şöhrəti yağı başına,
Qılınc, əmud çalan biləkdi, kişi.

Çoxdan dolaşıbdı işi dünyanın,
Qarışıb qurusu, yaşı dünyanın,
Düşəcək sonuncu daşı dünyanın,
Işi başdan-başa kələkdi kişi.

Haqq, göydən yağıştək tökülən deyil,
Haqq, səpilən deyil, əkilən deyil,
Həsrətin həsrəti çəkilən deyil,
Elə zənn etmə ki, mələkdi, kişi.

Aşiq ilə sağollaşıb uzaqlaşdıq çayxanadan,
Qanın niyə qaralıbdı söylə deyə sordum ondan.
-Indi sizə söylədiyim kədər dolu, bu hekayət,
Yalan deyil, yanlış deyil, həqiqətdir bir həqiqət.

## BORÇALIDAN GƏLƏN KİŞİ

Qəhrəmanım şeir- sənət vurğunu
Sazın-sözün qucağında böyüyüb.
Borçalıda göz açıbdı dünyaya,
Azərbaycan torpağında böyüyüb.

Illər öncə köçüb gəlib Bakıya,
Ömür-gün yoldaşı Ağdaş qızıdı.
Üzündən-gözündən qayğı tökülür,
Yerdən də, göydən də o narazıdır.

Səbəb qeydiyyata düşə bilməmək,
Adamı, bu yerdə lap tutur gülmək.
Ingilis, Bakıda ev ala bilir,
Ingilis, Bakıda evlənə bilir,
Azərbaycan oğlu qeydiyyatsızdır,
Bu işin adı yox, bu iş adsızdır.

Nə gördü ki, nə sevinə,
On ildi ki, öz evinə,
Qeydiyyata düşə bilmir.
On ildi ki, üzü gülmür.

Bölünübdü budaq-budaq,
Parça-parça olub torpaq.
Sərhədləri çəkən bilir,
Bu toxumu səpən bilir,

Nə səpibdi, bu torpağa,
Illərdi ki, nə biçirik,
Illərdi ki, nə çəkirik,
Üzümüzdən-gözümüzdən,
Kədər-qüssə yağa-yağa.





Neçə ürək aralayıb,
Bəd niyyətlər, bəd əməllər.
Torpağımı paralayıb,
Zaman-zaman qara əllər.

Borçalıdan gələn dostum,
Qəm içində gülən dostum.
Bir millətin yüz dərdi var,
Sərhəd xətti olub çaylar.
Sən, bu yurdun öz oğlusan.
Od oğlusan, köz oğlusan.
Buralıykən arvad-uşaq,
Niyə sənə olub yasaq,
Düşmək çətin qeydiyyata,
Qeydiyyatsız gəzən ata.

Dəmirqapı Dərbənd bizim,
Qarayazı, bu dərd bizim.
Irəvanı, Təbrizi var,
Hər yanında dərd izi var.
Biz bir olsaq, biz çox olsaq,
Yaralanmaz ocaq-ocaq,
Doğma ulu torpağımız,
Mərdlə dolu torpağımız.
Son yaramız Qarabağın,
Dərdi sonmu, bu torpağın?

Ümidini, gümanını,
Inamını, imanını,
Bağlamısan qanunlara,
Sonda haqqın tanınacaq,
Elə uca qanunlarla.

## QOVHAQOV

Bir gün işə gəlmə dedi,
Iş sahibi Gündüz bəyə.
Qeydiyyatı yoxdu deyə.
Yazışmalar, məhkəmələr,
Cavab verdi ayrı xəbər.

Bu vəziyyət davam etdi,
Aylar ilə, illər ilə.
Neçə qapı arxasında,
Neçələri saldı ələ.

Ilin-günün, bu vaxtında,
Qeydiyyatsız gəzir insan.
Belə-belə iş ucundan,
Özündən də bezir insan.

Bu torpağın qucağından,
Ata-baba ocağından,
Neçəsini qaçaq saldıq.
Axı kimdən xəbər aldıq?
Bu xəbərsiz itənləri,
Yad torpaqda bitənləri.

Insanların kimliyini,
Kağızdısa təsdiq edən,
Niyə peşman olmasın ki,
Bu dünyaya gəlib-gedən.

Gündüz kişi, qaranlıqlar,
Bu dünyada hər yerdə var.





Gözəl insan, gözəl ata,
Can atırsan qeydiyyata.
Qapılardan qovulursan,
Dərd içində qovrulursan.
Vəsiqəsiz gəzən insan,
Dərd içini əzən insan.

Neçə ildi üzü gülmür,
Sözü gülmür, gözü gülmür.
Öz evinə, ocağına,
Qeydiyyata düşə bilmir,
Bir müəllim, bir ziyalı.
Üzü nurlu pir ziyalı,
Qeydiyatsız şəxsiyyətdi.
Bu da belə həqiqətdi.

Qeydiyyatsız iş verən yox,
Iş olmasa qeydiyyatı.
Mənə də bəxş eləyiblər,
Bir zamanlar bu həyatı.

## HAŞİYƏ

Mən, bu dərdi, bu əzabı,
Sovet dövrü yaşamışam.
Dörd uşağı qeydiyyata,
On ildən sonra salmışam,
Min-bir zillət ilə.
Özümünkü süründürüb,
Məni qəsdən bilə-bilə.
Işlərimi düzüb qoşan,
O nur sifət ağbirçəyə,
Ömür boyu minnətdaram,
Bu torpağın duz-çörəyi,
Düz çörəyi,
Oldu haram, o alçağa
O nankor, ələ baxan,
O simasız yaltağa.
Sapı da, tiyəsi də
Özümüzdən olan balta,
Məni də saxlayıb, qardaş,
Məni də yarı yolda.

Qurd qoyunla gəzər, pambıq od ilə,
Hər kəs əməl etsə qayda- qanuna.
Bir nankor cibinə əl uzadırsa,
De qanun neynəsin, a qardaş, buna.

Ana Vətən qucağında,
Ata-baba ocağında,
Düz olanı qabağında,
Əyənlər də özümüzük.





Haramlıq yox əlimizdə,
Obamızda, elimizdə,
Doğma ana dilimizdə,
Söyənlər də özümüzük.

Yandırırıq dilimizlə,
Oynayırıq külümüzlə,
Başımıza əlimizlə,
Döyənlər də özümüzük.

Söylə, varmı görən haqqı,
Ürəyinə hörən haqqı,
Qanun bizə verən haqqı,
Yeyənlər də özümüzük.

Haqq yaramır gərəyinə,
Dərd yükləmə kürəyinə,
Bir-birmizin ürəyinə,
Dəyənlər də özümüzük.

## BORÇALIDAN DANIŞ BİR AZ

Fikir vermə cəfasına,
Meylini sal səfasına,
Od dünyanın, su dünyanın,
Bel bağlama, bu dünyanın,
Etibarına, vəfasına,
Bir "Qaraçı" havasına,
Qoy alışsın sinəndə saz.
Borçalıdan danış bir az!

Izi itən şairlərin,
Sözü itən şairlərin,
Üzlərində, gözlərində,

Dillərində, sözlərində,
Vətən bitən şairlərin,
Dil-dil ötən şairlərin,
Yaddaşından çıxıb Araz.
Borçalıdan danış bir az!

Bostanımız uralanıb,
Tariximiz qaralanıb,
Ayrılığın yox dəvası,
Bu millətin yurd-yuvası,
Hər tərəfdən yaralanıb,
Ellər yaman aralanıb.
Ürəkləri kəsir ayaz.
Borçalıdan danış bir az!

Bizim üçün dünya sərgi,
Gündüz kişi, toxta, səngi,
Meylini sal baharına,
Çaylarının axarına,
Yer pak deyil göylər təki,
Bizimkidi göylərdəki,
Yaralanmış o səs, avaz.
Borçalıdan danış bir az!

Dərdlərimiz qaçaq-qaçaq,
Alışsaq da ocaq-ocaq,
Həqiqətin bir donu var,
Hər həsrətin bir sonu var.
Qada-bəla sovuşacaq,
Doğma ellər qovuşacaq.
Gün gələcək daha bəyaz.
Borçalıdan danış bir az!
Borçalıdan danış bir az!





## EPİLOQ

Elə həmən çayxanada,
Bir gün yenə görüşdük.
Gündüz, gülə-gülə dedi;
-Nə yaxşı ki, yada düşdük.
-Nə var, nə yox, qardaşım,
Işdən açılmır başım,
Söylə işin düzəldi?
Üz-gözündə gülüş var.
Demək nəsə xoş iş var.
Demək hər şey gözəldi.
Bığaltı qımışaraq
-Şükür olsun Allaha,
Işim düzəldi daha.
Hər şey yaxşıdı dedi.
Ilahi özü tutsun,
Yaxşıların qolundan,
Təmizləsin həmişə,
Daş-kəsəyi yolundan.
Qanunları var olsun,
Yaradan var, yazan var.
Işlər necə olardı,
Olmasaydı qanunlar.
Sevincimdən quş olsam,
Qanaq açıb uçardım.
Bu an tək Gündüzü yox,
Var dünyanı qucardım.

**BAKI-2011**

**Redaktoru ZÜLFÜQAR ŞAHSEVƏNLİ**

# OCAQ DAŞI

**İLK KİTAB**

Həsrətin "Ocaq Daşı" kitabında toplanmış şeirlərində insan taleyindən, dünyamızın təzadlarından, yurd sevgisindən, torpağımızın, millətimizin bu günündən, sabahından, istək və arzularından söhbət açılır

**GƏNCLİK-1992**





## ŞER YAZDIRAN HƏSRƏT...

"Həsrət" şerimizin doğmaca sözüdür, daha çox taleyimizlə bağlı, şerimizin, cənub şeirlərimizin işlək, cəfalı sözüdür.

Şeir yazdıran sözdür.

Həsrətimizin bolluğundandır ki, indi artıq Həsrət adlı şairimiz də var.

Həsrət şeir yazır. Təbiidir ki, Həsrətin uzunömürlü cənub həsrətimizə həsr olunmuş yazıları da var və bunlar qəribə bir yanğıdan, nisgildən yoğrulub. Həsrət Həsrətə şer yazdırıb.

Onun şerləri mətbuat səhifələrinə nisbətən gec yol tapıb. Hansı bir uzaqdasa, tənhalıqdasa səssiz-səmirsiz süzülən çeşmənin gözünü açanlara ehtiyac duyulub...

Bəli, Həsrətin imzası mətbuatda otuz yaşından sonra görünməyə başlayıb. Şər deməsən xeyir gəlməz deyiblər. Bunun bəlkə də bir faydalı yönü olub ki, xeyli vaxt ərzində o həyat təcrübəsi ilə zənginləşib, duyğuları içində qala-qala tündləşib, "şagirdlik" dövrünü asanlıqla, öz səbrinin himayəsində keçib, günlərin bir günü yetgincə şerlərini yazmağa başlayıb; özü də tale yazılarını, öz həsrət şerlərini.

Həsrətin misraları xalq şer bulağından süzülüb gəlir. Dünyanın havasına qarışır, qayğılarımızdan, dərd-sərimizdən keçir, yeni rənglər, çalarlar qazanır, zənginləşir.

Həsrət yurdumuzun od-ocağına, torpağına-daşına çox bağlı şairdir. Misraları ocaq daşı kimi həm möhkəm, həm də istidir, hərarətlidir.

Əminik ki, onun çatdığı "ocaq" həmişə gur yanacaq, duyğularımızı alovlandıracaq...

**Ələkbər Salahzadə**

# VAXTIN ƏSİRİYİK YARANAN GÜNDƏN





## DÜNYA DƏYİRMANDI

Dəyirman daşıdı, bu yer-göy, qardaş,
Iki daş arası ömür sürürük.
Tanrının əliylə fırlanır, bu daş,
Üyünüb qarışır saf ilə çürük.

Ayların, illərin iştahı böyük,
Tanrı səpələyib bizi dən kimi.
Bu acgöz dünyanın dənliyindəyik,
O, bizi üyüdür dəyirman kimi.

Bir dilim torpağıq, bir gün torpağa,
Hardasa üyünüb qarışasıyıq.
Adımız yazılar bir daş yarpağa,
Elə bununla da barışasıyıq.

Keçir üstümüzdən bəzən duman, çən,
Qalır başımızda yüz hava izi.
Vaxtın əlindəyik yaranan gündən,
Zaman dəyirmana daşıyır bizi.

Dövlət qoruyuruq,  sərvət güdürük,
Demirik dayanıb öndə qəbrimiz.
Üyünə-üyünə dərd üyüdürük,
Dəyirman içində dəyirmanıq biz.

## SUSUZ QUYU

Bu quyunun, suyu yoxdu içində,
Bu quyunu, kimsə qazıb yalandan.
Çox karvanı, susuz qoyub, bu quyu,
Çox sarbanı, döndəribdi yolundan.

Qızmar Günəş istisinə düşənlər,
Bu quyunun başı üstə eniblər.
Bu quyuya su içməyə gələnlər,
Susuzluqdan yana-yana dönüblər.

Vaxt olub ki, çaylar, göllər daşıbdı,
Doldrubdu boğazacan sel suyu.
Barı yanıb bir yolçunun halına,
Bir damla su saxlamayıb, bu quyu.

Ilanlar var, bu quyunun içində,
Aman Allah, yolçuları çalacaq.
Suyu yoxsa, su tökməklə, bu quyu,
Inanma ki, bir gün sulu olacaq.

Bu quyuya, bu quyunu qazanı,
Salacaqlar bir gün sudan yananlar.
Yolçuların lənətinə gələcək,
Yol üstündə susuz quyu qazanlar.





## ZƏNCİR BƏNDLƏRİ

Zəncir bəndi kimi qalaqlanmışıq,
Tək-tək keçiriblər bizi qarmağa.
Həmişə meydanda biz tək qalmışıq,
Bizi qoymayıblar zəncir olmağa.

Domna sobasına dönüb içimiz,
Qanımız dəmirtək coşub-daşıbdı.
Hər zəncir bəndinin indi bildik biz,
Sümüyü Sibirdə poladlaşıbdı.

Bölünə-bölünə qalıq olmuşuq,
Saymaqla qurtarmaz dərdlərimizi.
Dinə bilməmişik, balıq olmuşuq,
Dünyaya səpiblər bəndlərimizi.

Qeyrəti nəfsinə qurban verənlər,
Şəhəri satıbdı, kəndi satıbdı.
Xalqın hesabına dövran sürənlər,
Zənciri satıbdı, bəndi satıbdı.

Biz hələ adicə zəncir bəndiyik,
Birləşə bilmirik, bilmirik, qağa.
Ayrı-ayrılıqda dərd ilgəyiyik,
Bizi qoymayırlar zəncir olmağa.

## NAĞILLAR

Haqqın boğazına dolanıb yalan,
Bu yalan, dünyanı yaman bürüdü.
Ürəklər itirdi nə qədər inam,
Inamsız qəlbləri güman bürüdü.

Obanın, oymağın çırağı sönüb,
Boş qalmış evləri döyür küləklər.
Yiyəsiz, yuvasız tulaya dönüb,
Atlını atından salan köpəklər.

Nə təndir qalanır, nə külfə yanır,
Atılmış tabaqlar çörəyə həsrət.
Diksinə-diksinə yatır, oyanır,
Günahsız körpələr yüyrüyə həsrət.

Düşdü yuvasından el pərən-pərən,
Ata ocağından köçdü oğullar.
Hansı evə düşdü üç alma görən,
Bizim evimizi yıxdı nağıllar.

O qədər uymuşuq şirin dillərə,
Yatıb yuxuda da nağıl görmüşük.
Ellər qurban gedib bəd əməllərə,
Bizsə yuxularda alma dərmişik.





## KƏNDİR KƏSMƏYİMİZ VAR

Bizim başımıza daş düşüb, qardaş,
Qanqal göyərtmişik gül əvəzinə.
Kim ki, öz yerindən ucalıb bir baş,
Ayaqdan çəkmişik əl əvəzinə.

Bütün ömrü boyu var yığa-yığa,
Üstündə yarpaqtək əsməyimiz var.
Məlikmmədləri atıb quyuya,
Sonra kəndirini kəsməyimiz var.

Dayaq olmamışıq yıxılanlara,
Yaxşının adına yamaq olmuşuq.
Təmiz nə görmüşük yaxmışıq qara,
Təklənə-təklənə yumaq olmuşuq.

Eli arxasınca haylayanlar var,
Məramı naməlum, yolu naməlum.
Torpağı pay bölüb paylayanlar var,
Imzası naməlum, qolu naməlum.

Bu elin, bu yurdun baba mərdləri,
Sürünə-sürünə ömür sürməyib.
Göyərib qalxsa da göyə dərdləri,
Qeyrəti nəfsinə qurban verməyib.

Bizim gəmiləri udub dalğalar,
Özgə qayığına avar çəkmişik.
Haqqı, ədaləti bölüb yalanlar,
Həqiqət önündə divar çəkmişik.

Torpağı, milləti çapıb, talayıb,
Sapı özümüzdən olan baltalar.
Illərlə düz sözün olmuşuq acı,
Ac qılınca çapar deyib atalar.

Bizim başımıza daş düşüb, qardaş,
Qanqal göyərtmişik, gül əvəzinə.
Kim ki, öz yerindən ucalıb bir baş,
Ayaqdan çəkmişik əl əvəzinə.





## QORXU SALXIMI

Başımız üstündə qorxu salxımı,
Hərəmiz gövdəyik bir salxım dərdə.
Ölüm toxumuyuq, qəm şitiliyik,
Başımız göydədi, kökümüz yerdə.

Qurtaran deyildir qoca dünyada,
Hələ yurd davası, torpaq bölümü.
Yerlərə baxanda qəbir görürəm,
Göylərə baxanda öz ölümümü.

Daha ölümümüz Tanrıdan gəlmir,
Boğur özümüzü öz əllərimiz.
Yağır başımıza yağışla-qarla,
Meyvətək yetişən əməllərimiz.

## ZAMAN VƏ BİZ

Zaman üstümüzdən axır çay kimi,
Vaxtın şırnağında yuyunuruq biz.
Dünya bir dənizdi, insanlar gəmi,
Ötən dəqiqələr yelkənlərimiz.

Vaxt olub düşmüşük burulğanlara,
Vaxtın dəyirmanı üyüdüb bizi.
Bəzən dağ çəkiblər, bəzən də dara,
Zaman özü mətin böyüdüb bizi.

Izimiz, bu çayın mənbəyindədir,
Düşməyin dağlara, dərələrə siz.
Göstərək soyunu, kökünü bir-bir,
Bu xalqın, sabahkı nəsillərə biz.

Tarixin kədərlə dolub yelini,
Vaxtın əmcəyindən könlüm qəm sağır.
Ayrılıq əyirmiş insan belini,
Nə varmış dünyada həsrətdən ağır?

Üzümüz zamanın axın yönünə,
Vaxta söykəmişik kürəyimizi.
Ağrı qəlbimizi deşəndə yenə,
Vərəqə sıxmışıq ürəyimizi.





Görmüşük hər işi Allaha pənah,
Demişik qoy bizdən yan keçsin xəta.
Bəmnən də olmuşuq, zildən də, vallah,
Zurna çalanlara züy tuta-tuta.

Zaman üstümüzdən axır çay kimi.
Vaxt bizi axıdır belədən-belə.
Tapıbdı soyunu, kökünü hamı,
Bizsə özümüzü gəzirik hələ.

## SÖYKƏNƏ BİLMİRİK

Bir yedə yurd salıb,
Kök ata bilmirik torpağa,
Ağaclartək.
Söykənə bilmirik,
Bir-birimizə, qağa.
Ömrü boyu ora-bura qaçırıq.
Özümüz də bilmirik
Niyə qaçırıq, hara qaçırıq.
Həsrət qurudur içimizi,
Qürbət çürüdür kökümüzü.
Beləcə çıxarırıq yaddan.
Ömrümüz çox az olur,
Əkdiyimiz ağaclardan.
Birimiz arana çəkirik,
Birimiz dağa.
Söykənə bilmirik
Biri-birimizə qağa
Sağlığımızda,
Bağlana bilmirik  torpağa.
Öləndən sonra əkilirik,
Odur ki, göyərmirik.





## QARA BAYRAQ

Planlar ödədik vaxtından əvvəl,
Qırmızı bayraqlar aldıq, sevindik.
Gələnə-gedənə əl çala-çala,
Özümüz əliboş qaldıq, sevindik.

Uca kürsülərdən tərifləyərək,
Göylərə qaldırdıq qul əməyini.
Pambıq kollarının xətri naminə,
Qızlar qurban verdi gözəlliyini.

Pambıq barmaqlardan qan dama-dama,
Codlaşdı, daşlaşdı qadın əlləri.
Xaral daşıdılar özündən ağır,
Gün altında yandı el gözəlləri.

Əməkdə birinci yeri tutardıq,
Odur sinəmizin odu çəkilmir.
Uşaq ölümündə birinci yeri,
Tutan məmləkətin adı çəkilmir.

Ölümdə birinci yeri tutmuşuq,
Doldura-doldura zəhəri cana.
Bu qədər əməyi itirmək olmaz,
Qara bayraq verin Azərbaycana.

## GECƏ YARIDAN SONRA

Gecə yarıdan sonra yağan yağışın səsi,
Haqsız ölənlərin azadlıq şərqisi.
Gecə yarıdan sonra döyülən qapının səsi.
Otuzyeddinci ilin qan iyi, qan nəfəsi.
Haqsız öldürülənlərin qərib naləsi.
Gecə yarıdan sonra yağan yağış
Gecə yarıdan sonra öldürülənlərin göz yaşıdı.
Gecə yarıdan sonra döyülən qapının səsi.
Səssiz öldürülənlərin baş daşıdı.
Bu yağış, bu səs üzülüb havadan.
Haqq göyərəcək qara torpaqdan.
Gecə yarıdan sonra qapı xeyirliyə döyülməz.
Gecə yarıdan sonra qapısı döyülən əyilməz.
Yoxsa gecə yarıdan sonra yağışlar yağmaz.





## ÇƏKİBDİ

Qırıb belimizi namərdin dizi,
Toz altında qalıb millətin izi,
Zaman aralıqda qoyubdu bizi,
Biri Aya, biri çaya çəkibdi.

Haqqın, ədalətin səbri acıyıb,
Nə vaxt ki, yalanın üstə şığıyıb,
Yerlər başımıza qılınc qıcıyıb,
Göylər üstümüzə qaya çəkibdi.

Namərdlər əl atıb mərdlik tacına,
Kündətək salıblar vaxtın sacına,
Xainlər milləti dar ağacına,
Millət öz dərdindən taya çəkibdi.

Haqqa divan tutub yalanla-yaman,
Bu torpaq veribdi nə qədər qurban,
Çirkin əməlini gizləyib zaman,
Çox qara işlərə boya çəkibdi.

Hələ ki, yaşayır Qorqud qopuzu,
Hələ ki, qoruyur bu yurdumuzu,
Şadam ki, bu yurdun oğulu-qızı,
Üzünə qeyrətdən həya çəkibdi.

## TƏRƏZİ

Zaman-zaman yaralayıb vaxt bizi,
“Ərköyünlər” yaman-yaman söyüblər.
Zaman-zaman uralayıb vaxt bizi,
Dilimizi, dinimizi döyüblər.

Özümüzə yad olmuşuq, özgələr,
Yurdumuzu tərəziyə qoyublar.
Bu torpağın şirəsinə gələnlər,
Bu torpağı kökünəcən sorublar.

Zaman bizi bildiyitək çəkibdi,
Özümüzdən ağır gəlib dərdimiz.
Zaman bizi dərdimizlə əkibdi,
Göyərmişik qalib gəlib dərdə biz.

Zaman-zaman quduzlaşıb, çoxalıb,
Daşımızı başlarına döyənlər.
Babaların ocağına əl atıb,
Süfrəmizdən halal çörək yeyənlər.

Bir halda ki, düz yalanda itibdi,
Haqq axtarmaq haqq olanın haqqıdı.
Bu daş, bu tərəzi vaxtı ötübdü,
Tərəziyə baş qoymağın vaxtıdı.





## ÖZÜMÜZ HARDAYIQ

Yumub gözümüzü haqqın üzünə,
Gəzirik kor kimi əl havasına.
Inana bilmirik sağın sözünə,
Oynaya bilmirik sol havasına.

Susuruq haqqımız tapdalananda,
Oluna bilmirik haqq ilə təmin.
Fürsət gözləyirik, imkan olanda,
Haqqını yeyirik haqq istəyənin.

Irəli gedənin önündə hasar,
Çəkməyə həmişə, hər an hazırıq.
Gözə görünməkdən qorxmağımız var,
Çox zaman arxadan quyu qazırıq.

Yanından ötürük həqiqətlərin,
Yalanlar gününü edibdi qara.
Səsi boğulurdu dinən dillərin,
Zaman az çəkməyib haqq işi dara.

Nə günə qalmışıq ata yurduna,
Senat hökm verir Amerikada.
Yaman söz olmuşuq biz ona-buna,
Özümüz hardayıq, sözümüz harda.

Gərək susdurmayaq haqq deyən dili,
Bu gün, bu meydanda söz deməliyik.
Bir məqsəd altında toplayıb eli,
Olanı-olmazı düz deməliyik.

Bu gün açılmalı hər sirli düyün,
Sonra yetişəcək haraylar hara.
Sən sussan, mən sussam, o sussa bu gün.
Yenə çəkəcəklər haqqı bazara.





**YUXUMA GİRƏNLƏR**

Yatıram, qorxulu yuxu görürəm,
Yatıram, yuxumda qorxu görürəm,
Görürəm, paltarım əynimə girmir.
Yuxuma girənlər beynimə girmir.

Üç alma yerinə payıma göydən,
Güllələr tökülür, mərmilər enir.
Haça barmağından baba dərvişin,
Baxanda qanadlı ilan görünür.

Axır göy üzündən raket-ulduzlar,
Onlar düşən yerdən güllər dərilmir.
Daha yuxulara girmir gözəllər,
Daha yuxularda vergi verilmir.

Yuxuma girənlər beynimə girmir,
Gördüyüm yuxunu yoza bilmirəm.
Yazmaq istəyirəm gördüklərimi,
Əlim qələm tutmur, yaza bilmirəm.

Qapaya bilmirəm kipriklərimi,
Yuxuma qorxulu yuxular girir.
Danışa bilmirəm gördüklərimi,
Yuxuma girənlər beynimə girmir.

## GERİYƏ BAXMAĞA QORXURAM

Arxada dərd qalıb, ölüm qalıbdı,
Min-bir əzab qalıb, zülüm qalıbdı,
Ikiyə bölünmüş elim qalıbdı,
Həsrətli gözlərdən yaş yağa-yağa,
Geriyə baxmağa qorxuram daha.

Nə qədər qapalı yerlər açılır,
Nə qədər müqəddəs gorlar açılır,
Ilahi, nə qədər sirlər açılır,
Qurbanlar yiyəymiş hansı günaha.
Geriyə baxmağa qorxuram daha.

Qara böhtanların ölüm nəfəsi,
Susdura bilmədi haqq deyən kəsi,
Müşfiqin, Cavidin həyat şərqisi,
O gündən yol gedir üzü sabaha.
Geriyə baxmağa qorxuram daha.

Qəzetə, jurnala əl vurmaq olmur,
Yanmaq qoxusu var, toxunmaq olmur,
Əvvəldən axıra oxumaq olmur,
Nə qədər uzunmuş qara siyaha...
Geriyə baxmağa qorxuram daha.





## BAŞ HƏRLƏMİŞİK

Qaynayıb daşıbdı söz içimizdə,
Yanan sözlər salıb köz içimizdə,
Özümüz yanmışıq öz içimizdə,
Ürək əvəzinə daş hərləmişik.

Üzə deməlini yana demişik,
Bəla toxunmasın cana demişik,
Düzü yalanlara satıb yemişik,
Mədəni tox, başı boş hərləmişik.

Göylərə ucalıb harayı haqqın,
Düşübdü yolları dolayı haqqın,
Od tutub alışıb sarayı haqqın,
Qurunun oduna yaş hərləmişik.

Çox haqqın üzünə qəfil şapalaq,
Vurmuşuq hər cürə cır sözə calaq,
Düşmənə əl verib, dosta badalaq,
Dəri qorumuşuq, baş hərləmişik.

**DÜNYA NEYNƏSİN**

*Iti bazarında atından baha,*
*Mən belə dünyanın nəyindən küsüm.*
*M. Araz*

At var qiymətsizdi it küçüyündən,
Bu dünya neynəsin, a Məmməd Araz.
Biz ondan inciyib küsə bilərik,
Bu dünya neynəsin, a Məmməd Araz.

Qəzanın qəmindən ötüşəmmirik,
Arzuya, istəyə yetişəmmirik,
Elə bölünmüşük, bitişəmmirik,
Bu dünya neynəsin, a Məmməd Araz.

Odur insanlara əbədi beşik,
Çəkmək gərək ikən qoynuna keşik,
Bağrını etmişik biz deşik-deşik,
Bu dünya neynəsin, a Məmməd Araz.

Ağlaya bilmirik, gülə bilmirik,
Yaşaya bilmirik, ölə bilmirik,
Yüz yerə çəkirik bölə bilmirik,
Bu dünya neynəsin, a Məmməd Araz.

Unudan da bizik, atan da bizik,
Dərdinə göz yumub yatan da bizik,
Qiymət qoyan da biz, satan da bizik,
Bu dünya neynəsin, a Məmməd Araz.





**SƏN NƏYƏ GƏRƏKSƏN**

Xalqın ağ gününə qara çəkdilər,
Oğlunu, qızını dara çəkdilər,
Gül açan sinədə güllə əkdilər,
Sən nəyə gərəksən nəyə, a dünya?

Milləti bostantək uraladılar,
Qardaşı qardaşdan araladılar,
Sinəmi ortadan paraladılar,
Sən nəyə gərəksən nəyə, a dünya?

Gədələr ərləri yedilər yavan,
Gördünmü asdılar haqqı havadan,
Başın açılmayır qaldan, davadan,
Sən nəyə gərəksən nəyə, a dünya?

Ayların, illərin sərt qapıları,
Bağlayıb nə qədər mərd qapıları,
Qoynun başdan-başa dərd qapıları,
Sən nəyə gərəksən nəyə, a dünya?

Qəmin çoxaldıqca, ömür gödəlir,
Bağrımı dərmansız dərdlərin dəlir,
Allahın ölümü bəndədən gəlir,
Sən nəyə gərəksən nəyə, a dünya?

## SABAHINDAN QORXURAM

Atdan salıb qıratları minəni,
Dara çəkib haqq yolunda dinəni,
Belə olub, bu dünyanın dünəni,
Bu dünyanın sabahından qorxuram.

Əzab çəkir qiymətini bilənlər,
Yağı gəlir qucağına, gələnlər,
Usanmayır sinəsini bölənlər,
Bu dünyanın sabahından qorxuram.

Ağlayacaq doluxsunmuş göy üzü,
Qarışıbdı gecəsinə gündüzü,
Bu dünyanın axacaqdı ulduzu,
Bu dünyanın sabahından qorxuram.

Zəhər damır havasından, suyundan,
Zəhər axır dənizinə çayından,
Qulaq batır harayından, hayından,
Bu dünyanın sabahından qorxuram.

Tarixi var qaya dilli, daş yaxa,
Işlərindən açmaq olmur baş daha,
Nə aparır, bu günündən sabaha,
Bu dünyanın sabahından qorxuram.





## ATAMLA SÖHBƏT

Sənin tabutuna gücüm çatmadı,
Getdin bu dünyadan yad çiyinlərdə.
Bəxtin oyanmamış ürəyin yatdı,
Yatdı arzuların, diləklərin də.

Qarabığ  vaxtımı istərdin görmək,
Qəfil gözlərini yumdun həyata.
Dünyada çox şeyə dözmürmüş ürək,
Ağarıb saqqalım-saçım, ay ata.

Anam nələr çəkdi beş balan üçün,
Ömrünü-gününü o, bizə verdi.
Sındıq gedən günü dünyadan köçün,
Yamanmış atasız böyümək dərdi.

Kimsəsiz, köməksiz yatırdın xəstə,
Qohumdan, qonşudan həyan yox idi.
Hərə öz işində, öz söhbətində,
Bizim dərdimizi duyan yox idi.

Rahat yat, qoy qəbrin nur ilə dolsun,
Indi yaşayırıq sənsiz səninlə.
Onu da deyim ki, xəbərin olsun,
Evimiz doludu nəvələrinlə.

Yetə bilməsən də arzularına,
Üç qarabığ oğlun, iki qızın var.
Sən bir Günəş kimi endin qüruba,
Arxanca boylanan beş ulduzun var.

## QIFIL

Evlərə qoyuruq dəmir qapılar,
Qapılar üstünə qıfıl vururuq.
Ömrümüz-günümüz tükdən asılı,
Mənfəət güdürük, var qoruyuruq.

Hər şeyi deməyə gücümüz çatmır,
Bəzən ağzımızdan qıfıl asılır.
Danışa bilmirik gördüyümüzü,
Dustaq könlümüzdə sözlər pas atır.

Nə yaman itibdi etibar, inam,
Çox vaxt sözümüzü qıfıllayırıq.
Kimdənsə, nədənsə qorunmaq üçün,
Hərdən özümüzü qıfıllayırıq.

Nəyisə eşidib görməmək üçün,
Qulağa, gözə də qıfıl vururuq.
Beş-altı vərəqə, bir qələm qoyub,
Adi bir mizə də qıfıl vururuq.

Hələ aramızda yaşayır düzdü,
Qıfıl sındıranlar, qapı qıranlar.
Ən böyük oğrudu, ən qansız qatil,
Tarixin ağzına qıfıl vuranlar.

Izimiz, kökümüz qıfıl altında,
Hər şeyi açmağa açar tapılmır,
Nədəndir bilmirəm açarı bəlli,
Bağlı qapıları açan tapılmır.





## BEŞİYİMLƏ MƏZARIMIN ARASI

Beşiyimlə məzarımın arası,
Ömür yolu, yelləncək tək asılıb.
Beşiyimdən məzarıma gedirəm,
Yellənirəm ümidimə qısılıb.

Oynayıram, tale çalır havamı,
Xəbərim yox nə yazılıb baxtıma.
Məndən sonra dayanan var növbədə,
Oynayıram, az qalıbdı vaxtıma.

Enişi var, yoxuşu var bu yolun,
Yolçuları dəyişsə də yol qalır.
Bu növbələr ömrümüzü qısaldır,
Ömrümüzdən bir ömürlük vaxt alır.

Ayaq açıb qaçaq düşdüm beşikdən,
Ömür yolu, gəzdim səndə bir nəşə.
Könül açan heç nə yoxmuş sən demə,
Qadağa yer şirin olur həmişə.

Ömrü boyu belə olub, hamını,
Bu aldanış beşiyindən qoparır.
Ömür yolu yönəlibdi məzara,
Özümüzü özümüzə aparır.

## QARANQUŞ

Əlindən əyrilik, oğurluq gəlmir,
Yaşaya bilmirsən yad yuvasında.
Qoltuqda yaşamaq yaşamaq deyil,
Necə yaşayasan dərd yuvasında.

Palçıq dənələrin muncuq düzümü,
Taxılır eyvana gələndə bahar.
Palçığı da halal, çöpü də halal,
Sənin öz evin var, öz beşiyin var.

Başqa quşlar kimi göz dikməmisən,
Özgə əməyinə, başqa varına.
Istisi özündən süzülüb gələn,
Bir yuva qurmusan balalarına.

Halallıq quşusan- bahar elçisi,
Varlığın halaldan-haqdan yoğrulub.
Səndəki saflığa babalarımız,
Vurulub yuvan da müqəddəs olub.

Mənim də əlimdən əyrilik gəlmir,
Kaş mən də sənintək bir quş olaydım.
Içindən, çölündən halallıq yağan,
Bir eyvan üstündə yuva quraydım.





## OTUZ ÜÇÜNCÜ

Otuz üç Yazını görmüşəm sənin,
Otuz üç Qışını yola vermişəm.
Bu otuz üç yaşlı ömür bağından,
Sevinc də dərmişəm, qəm də dərmişəm.

Otuz üç nə nəsdi, nə də ki, qanlı,
O nə on üç deyil, nə otuz yeddi.
Bu rəqəm mənimçün əzizdi dünya,
Bu mənim ömrümdən-günümdən getdi.

Bu otuz üç ildə olan günlərin,
Bəlkə xatırladım otuz üçünü.
Heç cürə unuda bilmirəm, ancaq,
O qışı-atamın öldüyü günü.

Ömrümün otuz üç qapısı açıq,
Hələ tapmamışam özüm özümü.
Hərdən boylansam da dünənimə mən,
Sabaha dikmişəm bu gün gözümü.

Ömrümün binası neçə otaqlı,
Üstündə neçəsin saxlayır torpaq.
Hələ ki, keçmişəm otuz üçündən,
Hələ qarşıdadır qırxıncı otaq.

## QAPI

Bu qapı yerinə qoyulan gündən,
Üzü astarını görməyib hələ.
Astarı üzünü görməyib hələ,
Bu qapı yaşaya bilərmi belə?

Üzünü qar döyüb, yağış döyübdü,
Ayağı torpaqdan sular çəkibdi.
Gələn üzü söyüb, üzü döyübdü,
Üzü astarından nələr çəkibdi.

Gözləyə-gözləyə üzü önündə,
Yüzünün nəzilib səbrinin sapı.
Beləcə açılıb-örtülüb gündə,
Astarı üzündən xəbərsiz qapı.

Yerindən çıxarıb atmaq gərəkdir,
Bu qapı başında qorxu fırlanır.
Bu qapı oyuncaq bir təkərəkdi,
Bu qapı başına çoxu fırlanır.





## YAXAMI BURAX A DÜNYA

Səndən küsməmmişəm, baxtdan küsmüşəm,
Çıxıb yıxıldığım taxtdan küsmüşəm,
Taledən küsmüşəm, vaztdan küsmüşəm,
Sən Allah, yaxamı burax, a dünya

Yerim darısqaldı, yuvam çatışmır,
Vallah boğuluram, havam çatışmır,
Təkcə sənin ilə davam çatışmır,
Sən Allah, yaxamı burax, a dünya.

Yaradan da sənsən, öldürən də sən,
Ağladan da sənsən, güldürən də sən,
Bölünən də sənsən, böldürən də sən,
Sən Allah, yaxamı burax, a dünya.

Bir tərəfin xeyir, bir tərəfin şər,
Gah ağlar, gah gülər qoynunda bəşər,
Havanda zəhər var, suyunda zəhər,
Sən Allah, yaxamı burax, a dünya.

Səninlə söhbətim-sözüm qalmayıb,
Alışıb sönmüşəm, közüm qalmayıb,
Dağında, bağında gözüm qalmayıb,
Sən Allah, yaxamı burax, a dünya.

Bu ömrü haçansa biçəsiyəm mən,
Sonuncu bir badə içəsiyəm mən,
Onsuz da qoynuna köçəsiyəm mən.
Sən Allah, yaxamı burax, a dünya.

Qurtaran ha deyil toyun-düyünün,
Kəsilən ha deyil təranən, ünün,
Bəlkə daha xoşdu Həsrətsiz günün,
Sən Allah, yaxamı burax, a dünya.

## DEYƏMMİRİK

Niyə belə yaranmışıq,
Özgəsini bəyənmirik.
Ədalətə, həqiqətə,
Başımızı əyəmmirik.

Haqda bəlkə axtarırıq,
Gündə ləkə axtarırıq,
Haram tikə axtarırıq,
Halal çörək yeyəmmirik.

Vurub ağa qara yamaq,
Yaşayırıq kefimiz çağ,
Yamanlığa üzmüz ağ,
Yaxşılığı öyəmmirik.

Uzun yolu keçib kəsə,
Axtarırıq hələ nəsə,
Alammırıq ələ əsa,
Dəmir çarıq geyəmmirik.

Vurruq, yumub gözümüzü,
Oda-közə, özümüzü,
Deyiləsi sözümüzü,
Öz vaxtında deyəmmirik.





## TAPILACAQ

Kimdi bu torpağı canından artıq,
Sevərək yolunda ölənlər, kimdi?
Çürük qeyrətini qarnına satıb,
Hədiyyə adıyla bölənlər kimdi?

Dünyanın işidi törəyir bəzən,
Haqqı deyənlərdən haqqı yeyənlər,
Üz-üzə dayanıb yaranan gündən,
Haqqı söyülənlə, haqqı söyənlər.

Elin düşmənidi, elin malını,
Yeyənlər, satanlar eldən xəbərsiz.
Qoşun paymal olmaz ayaq altında,
Önündə dayansa mərd sərkərdəsi.

Nə qədər bölünüb parçalanmışıq,
Yarı zorla gedib, yarı hədiyyə.
Bircə qarış torpaq and içmək üçün,
Niyə verən yoxdu bizə, bəs niyə.

Bilirəm haçansa haqqı deməyə,
Adam tapılacaq, söz tapılacaq.
Yanan doğrudan da ocaqsa əgər,
Külünün altından köz tapılacaq.

# PAYIZA HƏSRƏT DÜŞÜB





## ŞEİR ŞƏKİLLƏR

Gündüzlər gözümlə şəkil çəkirəm,
Gecələr qanımla aşkarlayıram.
Beləcə yaranır şeir şəkillər,
Ömrün albomunu varaqlayıram.

O qədər şəkil var tarixi qara,
Bizə tarix yazan tarixsiz qalıb.
Vaxt olub vaxtı da boğazlayıblar,
Kiminsə yerinə tarix asılıb.

Bir əlində qələm, birində qılınc,
Bu şəkil İsmayıl Xətainindir.
Bu şəkil Babəkin, bu Koroğlunun,
Bəs bu şer satan - bu Hadinindir.

Baxmaqla qurtaran deyil şəkillər,
O qədər qəhrəman mərd şəkili var.
Hər qurban tarixə bir tarix yazıb,
Gör burda nə qədər dərd şəkili var.

Dindirsən şəkillər açacaqdır dil,
Donmuş bir zamandı burda hər şəkil,
Əfsus ki, üzünə güləsi deyil,
Zamanın üzünün sərt şəkili var.

Vüsalçün alışan bir dodaq şəkli,
Gövdəsi qurumuş bir budaq şəkli,
Yarıya bölünmüş bir ocaq şəkli,
Torpaq şəkili var, yurd şəkili var.

Baxdıqca səbrimin səbri tükənir,
Dözümüm qalmayıb yurd fərağına.
Körpü çəkəcəyəm Arazın üstdən,
Ömür albomunun son varağına.

## AMAN HEY

Taleləri, qismətləri ayrıyıq,
Qovuşmağa qalmayıbdı güman hey.
Heç bilmədik necə gəldi ayrılıq,
Aralığa yaman düşdü, yaman hey.
Qovuşmağa qalmayıbdı güman hey.

Sevincini, dünya, kimlər bölüşüb,
Payımıza həsrət düşüb, qəm düşüb,
Kədərimiz gözümüzdə üyüşüb,
Açılmayır dərdin donu aman hey.
Qovuşmağa qalmayıbdı güman hey.

Bir yoldayıq izlərimiz görünmür,
Bir dilliyik sözlərimiz görünmür,
Heç olmasa gözlərimiz görünmür,
Aramıza duman çöküb, duman hey.
Qovuşmağa qalmayıbdı güman hey.





## BİR PAYIZ DA BELƏ KEÇDİ ÖMÜRDƏN

Yuxuya vermişdi bizi nağıllar,
Ilahi, nağılla bizi boğullar,
Torpaq harayına, yurd harayına,
Qınından sıyrıldı qılınc oğullar,
Göyərdi torpağın üzündə dən-dən.
Bir payız da belə keçdi ömürdən.

Gələnlər torpağı sovqat aparıb,
Bir qat veribdisə on qat aparıb,
Qeyrətsiz işləri qeyrətsizlərin,
Bu elin, bu yurdun belini qırıb.
Hələ də başımız açılmır dərddən.
Bir payız da belə keçdi ömürdən.

Başımız üstdəki qorxu yorğanı,
Yumdu gözümüzü yuxu yorğanı,
Görə bilməyirik quyuları biz,
Gördük arxamızda böyük yarğanı,
Çox şükür, ayıldıq qəflətdən,Vətən.
Bir payız da belə keçdi ömürdən.

Yatmışıq, nə qədər yurd itirmişik,
Yurd üstə nə qədər mərd itirmişik,
Daşla qapayaraq haqqın ağzını,
Həmişə dərd əkib, dərd bitirmişik.
Qara qanlar axıb ürəyimizdən.
Bir payız da belə keçdi ömürdən.

Kim verib bu qədər dözümü bizə,
Dərdimiz, qəmimiz çıxıbdı dizə,
Yerdə də, göydə də durna qatarı,
Ötdü qərib-qərib üzü Təbrizə.
Bir ağrı cücərdi yenə sinəmdən.
Bir payız da belə keçdi ömürdən.

## DİL

Mənim alim dostum Əlifbamı tap,
Onsuz olmayıbdır yəqin dilimiz.
Ana dilimizin özülünü yap,
Kiminlə istəsən dil taparıq biz.

Oxuyub yazmışıq yad hərflərlə,
Yad nəfəs qarışıb nəfəsimizə.
Əziblər, sıxıblar bizi illərlə,
Biz həsrət qalmışıq öz səsimizə.

Dilimiz ayrısa, yolumuz ayrı,
Yolumuz ayrısa, izimiz itir.
Sağımız ayrıdı, solumuz ayrı,
Ayrıla-ayrıla dilimiz itir.

Dili bir, dini bir, əqidəsi bir,
Bir damın altında gəzib yatanın.
Indi tarixini oxuya bilmir,
Nəvə babasının, oğul atanın.





## NƏS DİLƏYƏN VAR

El üçün yananın yolunda hələ,
Oğru ocağıtək tüstüləyən var.
Bir vətən oğluna hər şeydən ümdə,
Uğur əvəzinə nəs diləyən var.

Nəfsi qeyrətini döndərib qula,
Bütün varlığını endirib çula,
Elin sərvətini çevirib pula,
Sandığa doldurub dəstələyən var.

Keçib illər boyu ömrü maşında,
Izi yox torpağın bir qarışında,
Mədə yarışında, yal yarışında,
Çox özü-özünü üstələyən var.

Çoxunun veribdi zaman dərsini,
Çoxunun basıbdı toz dərisini,
Sudan çıxarmaqçün öz dərisini,
Özgənin canına qəsd eləyən var.

Adi bir stola hər şeyi atıb,
Qeyrətin ayağa, mənsəbə çatıb,
Dar gündə nəyini nəyəsə satıb,
Düşməni özünə dost eləyən var.

## OLUBDU

Dərdimizin içmizdə şişməyi,
Şişə-şişə sinəmizi deşməyi,
Oğulların pərən-pərən düşməyi,
Acı-acı sözümüzdən olubdu.

Həmzələrin qıratları minməyi,
Qartalların zirvələrdən enməyi,
Haqdan yanan çıraqların sönməyi,
Yaman-yaman gözümüzdən olubdu.

Sinəmizdə göyərdibdi qəhər dən,
Zəhər damır, vallah, belə bəhərdən,
Qoç igidlər ayrı düşüb yəhərdən,
Soyuq-soyuq üzümüzdən olubdu.

Boynumuza qol dolayıb ayrılıq,
Bizi-bizdən ayrı salıb ayrılıq,
Səbrimizə matmı qalıb ayrılıq,
Dərd-qəmimiz dizimizdən olubdu.

Üstümüzə yeltək əsən dərdlərin,
Içimizdə laltək susan dərdlərin,
Dərd odur ki, bizi kəsən dərdlərin,
Dəstəkləri özümüzdən olubdu.





## BU HAVA OYNAMAQ HAVASI DEYİL

Bu hava önündə səcdə et əyil,
Bu hava, müqəddəs bir ayədi bil,
Bu hava, oynamaq havası deyil,
“Yanıq Kərəmi”yə oynama, gözəl.

Əslinin, Kərəmin gözündən çəkin,
Nakam məhəbbətin közündən çəkin,
Yazıqsan, yanarsan özündən çəkin,
“Yanıq Kərəmi”yə oynama, gözəl.

Çəkməyə hamının müsibəti var,
Dünyada hərənin bir qisməti var,
Vətən həsrəti var, yurd həsrəti var,
“Yanıq Kərəmi”yə oynama, gözəl.

Neçə Kərəmimiz var idi bizim,
Həsrət aramıza yeridi bizim,
Bu da dərdimizin biridi bizim,
“Yanıq Kərəmi”yə oynama, gözəl.

Kərəmtək yanaram alovum dil-dil,
Yandırar Əslitək səni edər kül,
Bu hava oynamaq havası deyil.
“Yanıq Kərəmi”yə oynama, gözəl.

## KİM YEYİB

Biri varmış, biri yoxmuş dünyada,
Biri acmış, biri toxmuş dünyada,
Üç almalı nağıl çoxmuş dünyada,
Bu nağılın almasını kim yeyib?

Danışdıqca el başına yığıldı,
Nağıl bitdi, hamı durub dağıldı,
Ay nağılçı, danışdığın nağıldı-
Bu nağılın almasını kim yeyib?

Qara divlər artırıbdı qorxumu,
Bu qorxunun neçə illik toxumu,
Vallah fikir ərşə çəkib yuxumu,
Bu nağılın almasını kim yeyib?

Danışanda bilmirdinmi axırı,
Açılacaq nağılının paxırı,
Tapılacaq bir soruşan kəs axı,
Bu nağılın almasını kim yeyib?

Bu torpaq da bir nağıldı, tacı biz,
Əkəni biz, biçəni biz, acı biz,
Özümüzü oda tutb içimiz,
Bu nağılın almasını kim yeyib?





## DAĞLAR

Qəfil qəza gəldi yenə başına,
Dağıldı yurdundan ellərin dağlar.
Obalar tuş oldu namərd daşına,
Göz yaşından oldu sellərin dağlar.

Üzünə gözlərin yaşı töküldü,
Üstünə namərdin daşı töküldü,
Zamanın payızı, qışı töküldü,
Əzildi zay oldu güllərin dağlar.

Görüb haqsızlığı qaya laxlayır,
Qartal yuvasında qılınc çalxayır,
Haçandı qoynunda ağı saxlayır,
Ceyranlı, cüyürlü çöllərin dağlar.

Qara geyinibdi bəyaz binalar,
Vətən həsrətiylə ağlar analar,
Yuvasından bezikibdi sonalar,
Viranə qalıbdı göllərin dağlar.

Başını qar döyür, sinəni dolu,
Bağlıdı obanın, oymağın yolu,
Açmağa tapılar bir gün bir Ulu,
Qoynunda qalıbdı əllərin dağlar.

## ƏDALƏT "KƏRƏMİ" ÇALIRDI

Sazın tellərindən od tökülürdü,
Ədalər "Kərəmi" çalırdı, qardaş.
Pərdələr boyunca dərd tökülürdü,
Alışırdı torpaq, ağlayırdı daş,
Ədalət "Kərəmi" çalırdı, qardaş.

Hələ közərirdi Kərəmin külü,
Od tutub yanırdı Əslinin teli,
Alov səsləyirdi haraya eli,
Ürəyə axırdı gözlərdəki yaş,
Ədalət "Kərəmi" çalırdı, qardaş.

Niyə allahların gözləri kordu,
Viranə qalırdı Ziyadxan yurdu,
Nakam məhəbbətin alovu, odu,
Dünyanı ağzına alırdı, qardaş.
Ədalət "Kərəmi" çalırdı, qardaş.

Alışıb yanırdı tavar saz döşdə,
Barmaqlar, pərdələr odla döyüşdə,
Haraya gəlmişdi Qara Keşiş də,
Gözlərində hiylə, üzündə təlaş,
Ədalət " Kərəmi" çalırdı, qardaş.

Qaratikan kolun üzə bilmədim,
Bu dərdə-əzaba dözə bilmədim,
Gecə keçdiyini sezə bilmədim,
Qalxdım, sökülürdü dan yavaş-yavaş,
Ədalət "Kərəmi" çalırdı, qardaş.





## YURD QƏDRİNİ BİLƏN VAR

Xoş dindirsən səni anlar burda daş,
Daşların da doğması var, a qardaş,
Qoyma atsın namərd olan yurda daş,
Qoy görsünlər yurd qədrini bilən var.

O zaman ki, mürgü sənə güc gələr,
Tut yaxandan öz-özünü silkələ,
Unutmaynan, unutmaynan sən hələ,
Bu dünyada bölünən var, bölən var.

Vuruşubdu bu torpağın yolunda,
Babalarmız qıratların belində,
Qılıncını möhkəm saxla əlində,
Arxamızca bu dünyaya gələn var.

Məni əzən, bu böhtandı, bu şərdi,
Şərə düşdük, əlacı nə bu dərdin?
Vətən oğlu vətənində didərgin,
Gözlərində dünya boyda ələm var.

Babək kimi qollarımdan kəsiləm,
Xətaitək bir döyüşdə basılam,
Haq yolunda dan yerindən asılam,
Hamı görə haq yolunda ölən var.

## ANA YURDUM

Yenə bahar gəlir qoynuna, Vətən,
Sənin torpağına, daşına qurban.
Ayrılsa öləræm sinəm sinəndən,
Baharına qurban, qışına qurban.
Sənin torpağına, daşına qurban.

Dağına, dərənə, yaşıl talana,
Ceyranlı düzünə, çölünə qurban.
Süsən-sünbülünə, nərgiz-lalana,
Küsgün bənövşənə, gülünə qurban.
Ceyranlı düzünə, çölünə qurban.

Arzuya yaxındır bu gün dünəndən,
Elinin, obanın yoluna qurban.
Canımı demişəm əzəl gündən mən,
Babəkin kəsilən qoluna qurban.
Elinin, obanın yoluna qurban.

Bu taydan o taya səməni gülü,
Göndərən əllərin sehrinə qurban.
Biri sevinc dolu, biri qəm dolu,
Arazına qurban, Kürünə qurban.
Mənim ana yurdum can Azərbaycan!





## YAMAN DƏYİŞİB

Toya çağrılardı el-oba ev-ev,
Bir köhlən boynunda əlvan kəlağay.
Hər toy obanındı, hər toy elindi,
Kəndi bürüyərdi sevinc, hay-haray.

Giriş qapısının bir tərəfində,
Neçə sac asardı yuxa yayanlar.
Hələ yadımdadı o qadınlara,
Sacüstü verərdi gələn qonaqlar.

Gəlin öz əlilə əlvan iplərdən,
Toy gününə qədər rəşmə hörərdi.
Cıdırda birinci yeri tutana,
Onu gülə-gülə özü verərdi.

Necə gözəl idi kənd qızlarının,
Boyasız, sürməsiz nazı, ədası.
Dili açılanda qara zurnanın,
Yeddi dağ aşardı toyun sədası.

Indi ayrı dəbli toylar-düyünlər,
Indi ayrı dəbli toyxanalar var.
Əcnəbi rəqslər, əcnəbi səslər,
Məclisə həsrətdi zurna, qaval, tar.

Indi kəndimiz də dəyişib tamam,
Nə külfə qalıbdı, nə də ki, təndir.
Sonuncu inəyin boynunda getdi,
Nehrənin boynuna dolanan kəndir.

Hər şeyin əsası, kökü gərəkdi,
Adət-ənənəyə yamaq yaraşmır.
Hər elin-obanın öz adəti var,
Adət yaşamırsa, xalq da yaşamır.

## SAHİBSİZ KÖPƏK

Dartına-dartına qalmısan elə,
Xaltanı boynundan çıxaran yoxdu.
Üstünə çaqqallar ulayır belə,
Dövrəndə vurnuxan tülkülər çoxdu.

Zəncir gəmirirsən hirsdən-hikkədən,
Sənin harayına çatan tapılmır.
Fırlana-fırlana düşürsən heydən,
Səsini səsinə qatan tapılmır.

Sıxır ürəyini köpək qeyrətin,
Vuruş meydanının yolları bağlı.
Hava gələcəkdir başına sənin,
Necə vuruşasan qolları bağlı?

Zəhmindən az qala yarıla torpaq,
Pələng nəriltinə yaxın düşən yox.
Qara verib keçir yandan yalquzaq,
Üz-üzə səninlə bir vuruşan yox.

Ay köpək bəs sənin sahibin hanı?
Çıxara boynundan xaltanı barı.
Çəkib döşlərinə pələng pəncəni,
Didib-dağıdasan yalquzaqları.





## BELƏ BİLMƏZDİM

Başlayıb ömrümün yarpaq tökümü,
Torpaq dərinlərə çəkir kökümü,
Illər dəstələyib çəkir yükümü,
Mən belə bilməzdim, belə bilməzdim.

Çaldılar, çapdılar böyür başımı,
Həsrətin əlləri döyür başımı,
Ağaran saçlarım əyir başımı,
Mən belə bilməzdim, belə bilməzdim.

Ayların həsrəti, illərin qəmi,
Sarılıb canıma sarmaşıq kimi,
Dünyanı seyr etdim yaraşıq kimi,
Mən belə bilməzdim, belə bilməzdim.

Deyirlər Qıratlı Koroğlu varmış,
Xalqın Babək adlı şir oğlu varmış,
Xətai ləqəbli bir oğlu varmış,
Mən belə bilməzdim, belə bilməzdim.

Vətənə sədaqət çəkirmiş demə,
Torpağa məhəbbət çəkirmiş demə,
Niyyəti bədlərin üstünə qəmə,
Mən belə bilməzdim, belə bilməzdim.

## ÖZÜMÜZ

Haqq yolunda dizin-dizin süründük,
Al rəngli bayraqlara büründük,
Ağ rəngli yalanlara büründük,
Bircə dəfə qızarmadı üzümüz.

Neçə yerdən yaralandı sinəmiz,
Tarix boyu paralandı sinəmiz,
Bostan kimi uralandı sinəmiz,
Baxa-baxa kor olmuşdu gözümüz.

Köləlikdə qabıq qoydu dərimiz,
Harda öldük bilinmədi yerimiz,
Yüzümüzü oda atdı birimiz,
Birimizi yaşatmadı yüzümüz.

Özümüzə ovammadıq biz umac,
Əriştəni yada kəsdik qarnı ac,
Kürsülərdən vəd elədik qızıl tac,
Işimizlə düz gəlmədi sözümüz.

Həqiqəti danmaq nəyə dəyərmiş,
Dərdlərimiz göz yaşıyla göyərmiş,
Qurd ağacı öz içindən yeyərmiş,
Bəyənmirik özümüzü özümüz.





## ŞEİRLƏRİM-DƏRDLƏRİM

Dərdlərim qəlbimi alıb araya,
Belə ki, yanıram çətinki sönəm.
Dərdimin kökləri dönüb misraya,
Vərəqə köçməsə çatlayar sinəm.

Içimdə od tutub yananda ürək,
Dərdimi demişəm deyimlərimdə.
Qanımla sulanıb açıbdı çiçək,
Gah sevinc, gah kədər şeirlərimdə.

Mənim şeirlərim- mənim dərdlərim,
Kökü quruyanı, bitəni də var.
Durna qatarıdı, həsrət düzümü,
Könlümdən vərəqə uçan misralar.

Vaxtın dərd gülləsi keçib həddini,
Hər güllə cücərən şeirimə dəyib.
Şeiri əysə də şair qəddini,
Şairlər dərdinə boyun əyməyib.

Şahmartək içimdə yatan dərdlərim,
Boğula-boğula çalır sinəmi.
Içimdə kök atıb artan dərdlərim,
Şair edəcəklər axırda məni.

## XOŞ GÖRDÜK QARDAŞ

*Ermənistanda zəlzələdən zərər çəkənlərə köməyə gedərkən il-76 modelli təyyarədə faciəli surətdə həlak olanların biri də BİAZ-nun fəhləsi Kamal Kərimov idi.*

Bilsəydi bu gediş son gedişdi, o,
Öpüb oxşayardı körpə qızını.
Bilsəydi geriyə qayıtmayacaq,
Barı söyləyərdi son arzusunu.

Qanında xainlik, namərdlik yoxdu,
Qəlbi saf böyüyüb yurdun mərdləri.
Bir xalqın yolunda ölümə getdi,
Biz sonra tanıdıq o namərdləri.

Düşmədi kimsənin yadına belə,
Bir nəfər adını yad eləmədi.
Dünyanı dağıdan böyük zəlzələ,
Yatmış vicdanları silkələmədi.

Xəbər qəfil gəldi tufanlar kimi,
Bir ata yurdunun damı söküldü.
Bir ana qəlbinin qırıldı simi,
Bir gəlin üzündən gülüş çəkildi.

Ölümü səninlə bölə bilmədik,
Bağışla hər dərdi bölürdük, qardaş.
Bu gün görüşünə yığışmışıq biz,
Səni xoş gəlmisən, xoş gördük qardaş.





## BU YURDUN

Yaranandan üz-üzəyik, zaman-mən,
Diləmədim zamanımdan aman mən,
Bu ocaqda alışan mən, yanan mən,
Öz canımı isitməyir öz odum.

Kürəyimi əzib əyən daşların,
Sayı yoxdu mənə dəyən daşların,
Ocağına çatılaraq yaşların,
Hesabına yana-yana qurudum.

Sağalmamış təzələndi yaramız,
Yad əllərlə uralandı sıramız,
Çox axtardım nədi bizim çarəmiz,
Tapammadım, axtarmaqdan yoruldum.

Zərbə dəydi zərb dalınca belə hey,
Dəstə-dəstə dərd gətirdi elə hey,
Mən söylədim, mən eşitdim elə hey,
Ürəyimi göz yaşımla qovurdum.

Parçalayıb o tay-bu tay etdilər,
Tikan olub aralıqda bitdilər,
Haqsız yerə qanımızı tökdülər,
Günahı nə, bu millətin, bu yurdun?

## YANMAQ OLAR

Aldadılmış bir gözəlin qarğışına,
Həsrət dolu bir cüt gözün baxışına,
O gözlərin vaxtsız yağan yağışına ,
Yanmaq olar.

Bir ananın oğul deyən naləsinə,
Bir balanın ana deyən son səsinə,
Insansansa, bircə gülün qönçəsinə,
Yanmaq olar.

Haqqın səsi ürəyimdə çatır ocaq,
Hər bir şeyi yazmaq olmur, olmur, ancaq,
Yazmadığım sözlər məni yandıracaq-
Yanmaq olar.

Azərbaycan-mənə ana, mənə arxa,
Azərbaycan-od köynəyi açıq yaxa,
Adi çayın sularına baxa-baxa,
Yanmaq olar.

Aylar-illər ömrü yolur çəngə-çəngə,
Ölüm ilə çıxmayıbdır kimsə cəngə,
Bu dünyanın tərs işindən gəlib təngə,
Yanmaq olar.

Bir şikəstin ağrısını azaltmağa,
Əməlinlə ömrün bir an uzatmağa,
Yanmağınla, qadirsənsə yaşatmağa,
Yanmaq olar!





## OCAQ DAŞI

Bu ocağın özəyi sən, özü sən,
Bu ocağın alovu sən, közü sən,
Bu ocağa haram tikə gəlibmi?
Bu ocağın yuxu bilməz gözüsən.
Ocaq daşı.

Tərs işlərə nifrətdənmi qaraldın,
Doğmalara həsrətdənmi qaraldın,
Səni bura gətirəni itirdin,
Bu boşluğa heyrətdənmi qaraldın?
Ocaq daşı.

Ata yurdu, ocaq daşı qoşadı,
Bu adları kim yaşatdı-yaşadı,
Ağlada da, güldürə də bilirsən,
Bilməm sənə kim qoyubdu daş adı-
Ocaq daşı.

Sənin adın müqəddəsdi, ucadı,
Sənin adın bu tarixdən qocadı,
Yaşamağa haqqı yoxdu dünyada,
Kim tapdasa bu ocağı, bu adı.
Ocaq daşı.

Inan səndən, canım-gözüm, sirdaşım,
Nə ayrıllam, nə də axa göz yaşım,
Bu ocağa birinci sən gəlmisən,
Bu ocağın son beşiyi-qardaşım-
Ocaq daşı.

## DİBÇƏK GÜLLƏRİ

Tale paylananda, bəxt bölünəndə,
Saraylar pay düşüb qismətinizə.
Tufanlar qopsa da çöldə, çəməndə,
Küləklər dəyməyib sifətinizə.

Əldən-ələ keçib şitilləriniz,
Evlərə adicə bəzək olmusuz.
Baxımsız qalanda bir anlığa siz,
Elə saralmısız, elə solmusuz.

Havası çatmasa, suyu çatmasa,
Bilirəm hər şitil bitəsi deyil.
Isinib bir doğma yurd havasına,
Bitəni olarsa, itəsi deyil.

Adi bir dibçəkdi, bu yer kürəsi,
Tanrı şitilləyir bizi torpağa.
Neçə şitil verib, zoğ göndərəsi,
Birimiz arana, birimiz dağa.

Könül bağlamasa torpağa insan,
Kökündən çürüyər şitillərimiz.
Sizintək nazımız çəkilsə əgər,
Dünyanı bürüyər şitillərimiz.





## AŞMAQ QORXUSU

Deyirdim yuxumu danışım sənə,
Deyirdin get danış axar sulara.
Ay ana, bir yuxu görmüşəm yenə,
Danışa bilmirəm axı sulara.

Dünyanı ağzına alıbdı tamam,
Nisgilli-nisgilli çaylar doğrusu.
Inan mənə indi ay mənim anam,
Qarışıb suların şirin yuxusu.

Yuxumu çaylara danışammıram,
Çayların dərdini duyandan bəri.
Bu axar sulara qarışammıram,
Yuxumdan onların yoxdu xəbəri.

Yuxu yozanları yoxdu çayların,
Onlar öz dərdini gətimir dilə.
Duyanda dərdini adi bir çayın,
Adam öz dərdini unudur belə.

Alır qucağına çayları dəniz,
Indi onların da qaçıb yuxusu.
Ay ana, yuxumu dağıdıb təmiz,
Yuxulu çayların daşmaq qorxusu.

## TƏNHA BULAQ

Qovuşa bilmirsən böyük çaylara,
Ala qucağına dənizlər səni.
Kökün bağlansa da uca dağlara,
Udur əjdahatək dərələr səni.

Bu qara torpağın odu, közümü,
Yoxsa bu dağların göz yaşımısan?
Gözün açılandan boyun uzunu,
Həyat daşımısan-su daşımısan.

Asılı qalmısan cığırlardan sən,
Dağların boynunda talisman kimi.
Xəbərin varmı ki, kəsib yolunu,
Əjdaha dərələr  ac aslan kimi.

Gözündən süzülən şərbət suyunun,
Bir dərə uzunu ömürü yoxdu.
Yetişə bilmirsən mənzilinə sən,
Dərənin tamahı səndən soyuqdu.

Hayıf ki, tənhasan, tənha bulağım,
Nəğməli səsini eşitmir ellər.
Qovuşa bilsəydi tənha bulaqlar,
Yəqin dərələri boğardı sellər.

Yaşamaq həvəsin qaya çatladıb,
Torpağın yanğısı yox elər səni.
Qovuşa bilmirsən böyük çaylara,
Udur əjdahatək dərələr səni.





## GƏNCƏ BELƏ GƏNCƏDİR

Kəpəz dağı bir igiddi, bir sərv ər,
Göy-Gölümdü belindəki o kəmər,
Sularında ulduz çimər, Ay çimər,
Hər damlası mirvaridir, incidir,
Əziz dostum, Gəncə belə Gəncədir.

Abidədir min dastanlı, əsərli,
Qocaları sözü ötgün, kəsərli,
Çinar boylu igidləri hünərli,
Gözəlləri gözəllikdən incədir.
Əziz dostum, Gəncə belə Gəncədir.

Süfrəsində qonağının payı çox,
Sədaqətdə, etibarda tayı yox,
Leyli kimi leylisinin sayı çox,
Kərəm kimi aşiqləri mincədir.
Əziz dostum, Gəncə belə Gəncədir.

Haram qatmaz çörəyinə, duzuna,
Ehtiram var gəlininə, qızına,
Qonaq olsan, bu diyarda özünə,
Yaxın sanar qoca nədir, gənc nədir.
Əziz dostum, Gəncə belə Gəncədir.

Nizamisi, Məhsətisi uludur,
Batmaz heç vaxt şerin səsi, uludur,
Azərbaycan solmaz bir koludur,
Bax, bu diyar, o kol üstə qönçədir,
Əziz dostum, Gəncə belə Gəncədir.

## ARAZ

Bu həsrətin beş qərinə yaşıdı,
Bu həsrətin otuz milyon yaşıdı,
Bu həsrətin gözlərinin yaşıdı,
Araz!

Bu ayrılıq dərd üstə dərd qaladı,
Bu dərd məni atəşlərə qaladı,
Sahilləri dərd hörgülü qaladı,
Araz!

Ürəyimi şumlamışam qəmə mən,
Şumlamışam, əllərimdə qəmə, mən,
Qəmələlər əllərindən qəm əmən,
Araz!

Yaralıdı, bölünübdü sinəm tən,
Yüz sığalla, bitirəmməz sinəm dən,
Qılınc-qalxan göyərdəcək sinəmdən,
Araz!

Axa-axa boyun boyu dərd daşı,
Tale mənə səni seçib dərddaşı,
Ərimərəm, dərd daşıyam, dərd daşı,
Araz!





## HƏLƏ

Çək həsrət sinəmə, od şırımlar çək,
Parçala sinəmi sıldırımlartək,
Şaxıya bilmirəm ildırımlartək,
Hərdən şimşək olub çaxıram hələ.

Nağıllar, dastanlar beynimə batmır,
Dərdlərim ovunmur, sığala yatmır,
Özümnən-özümə əllərim çatmır,
Özümnən-özümə baxıram hələ.

Dalğalar oynadır vüsal gəmimi,
Qaldıra bilmirəm al yelkənimi,
Ayrılıq oduna çatıb qəmimi,
Özümü yandırıb-yaxıram hələ.

Bu su göz yaşıdı içə bilmirəm,
Sudan göz yaşımı seçə bilmirəm,
Bu taydan o taya keçə bilmirəm,
Sulara qovuşub axıram hələ.

Araz qılınc olub yaxama girir,
Namərd asta-asta arxama girir,
Babəkin qılıncı yuxuma girir,
Belimə yuxumu taxıram hələ.

## MƏN NİYƏ QILINCA ƏL ATMAYIM Kİ

Bu gün üstümüzə tir atanlar var,
Böhtan atanlar var, şər atanlar var,
Mənim torpağıma tor atanlar var,
Mən niyə qılınca əl atmayım ki?

Qatanlar var isə ağı qaraya,
Yalanlar alıbsa haqqı araya,
Bu yurd səsləyirsə məni haraya,
Mən niyə qılınca əl atmayım ki?

Hanı bu millətin bəbri-Babəki,
Od alıb yanacaq qəbri Babəkin,
Qəbirdə tükənib səbri Babəkin,
Mən niyə qılınca əl atmayım ki?

Intizar çəkirsə bacım, qardaşım,
Axıb qarışırsa Araza yaşım,
Əgər təklənirsə ocaqda daşım,
Mən niyə qılınca əl atmayım ki?

Yurdumu böldürən, bölən var isə,
Həsrət, yurd yolunda ölən var isə,
Üstümə qılınclı gələn var isə,
Mən niyə qılınca əl atmayım ki?





## ALNIMA YAZILANLAR

Bilmirəm, bu yazı hansı dildədi,
Nə yazıb alnıma tanrının əli?
Oxuya bilmirəm, görə bilmirəm,
Tutuşmur dilimlə tanrının dili.

Bilmirəm alnıma yazılan yazı,
Bu vaxtsız ağaran tellərimdimi?
Ayrılıq oduna alışıb yanan,
Yarıya bölünmüş ellərimdimi?

Bilmirəm alnımın qırışlarımı,
Ömrümün dolaşıq yollarıdımı?
Bu taydan o taya qoşa yol kimi,
Uzanan bir igid qollarıdımı?

Oxuya bilmirəm yazılanları,
Alnıma həqiqət yazılıb bəlkə?
Bir el gözəlinin adı, sevgisi,
Səadət, məhəbbət yazılıb bəlkə?

Oxuya bilmirəm, qardaş, alnıma,
Tanrının əliylə qazılanları.
Asi düşəcəyəm Allaha bir gün,
Pozacam alnıma yazılanları.

## O DAŞ HARDADI

*Söhrab Tahirə*

Sən danışan zaman uşaqlığından,
Dərdimin üstünə dərd ələnirdi.
Ayrılıq sinəmi almışdı nişan,
Ürəyim o dərdlə güllələnirdi.

O taydan bu taya bir daş atmısan,
Bu tayda özünün dizinə dəyib.
Ayrılıq adında ocaq çatmısan,
Alovu, atəşi hələ sönməyib.

Od alıb yanırsan səssiz-səmirsiz,
Araz göz yaşıdır içə bilmirəm.
Mənim içimdədir Ərdəbil, Təbriz,
Özümdən özümə keçə bilmirəm.

Hardadır görəsən, hardadır, qardaş,
Ayrılıq adlanan bu dərdin sonu?
Hardadır görəsən atdığın o daş,
Barı heç olmasa öpəydim onu.





## AYRILIQDAN SÖZ DÜŞƏNDƏ

Quruyuram köküm üstə budaq kimi,
Saralıram budaq üstə yarpaq kimi,
Dodaqlarım suya həsrət torpaq kimi,
Çat-çat olur ayrılıqdan söz düşəndə.

Gözlərimdən ürəyimə Araz axır,
Gözlərimin arasında şimşək çaxır,
Bu dərd mənim ürəyimi yaman sıxır,
Rəngim solur ayrılıqdan söz düşəndə.

Iki quru alışarsa yaş yandırar,
Əsrlərin həsrət odu daş yandırar,
Ürəyimi "bəlkə" odlar, "kaş" yandırar,
Gözüm dolur ayrılıqdan söz düşəndə.

## DƏRD ARASINDA

Insan tez tanıyar dostun, düşmənin,
Qalarsa namərdlə mərd arasında.
Yatsan səni didər, qəfil parçalar,
Gərək qurd olasan qurd arasında.

Bir idi Babəkin qolunda Vətən,
Birdi Xətainin yolunda Vətən,
Sağım da Vətəndi, solum da Vətən,
Qalmışam bir doğma yurd arasında.

Bədbəxtlik üz versə qəflət torpağa,
Qeyrətli oğuldu qeyrət torpağa,
Allah, bir ömür ver, Həsrət, torpağa,
Getməsin həsrəti dərd arasında.





## ARAZIN NƏ GÜNAHI

Qara yazılıb bu yazı,
Hara yazılıb bu yazı,
Mənim şair dostlarım,
Az qınayın Arazı.
Arazın nə günahı?

Xudafərin-köhnə tağlar,
Aralıqda qalıb ağlar,
Ayrılığın alovu,
Ürəklərdə buz bağlar.
Arazın nə günahı?

Qartalıq dağa həsrət,
Bülbülük bağa həsrət,
Bir gövdənin üstündə,
Budaq- budağa həsrət
Arazın nə günahı?

Bölünmüşük sal kimi,
Yeyilmişik bal kimi,
Durub gendən baxmışıq,
Biz kor kimi, lal kimi.
Arazın nə günahı?

Igidlərin başıdı,
Bu dərdi kim daşıdı,
Aramızdan axan su,
Həsrətin göz yaşıdı.
Arazın nə günahı?

## BİR OD VURUB

Ana torpaq sinən üstə,
Düşməyibdi izim hələ.
Yazılmamış kitabım var,
Deyilməmiş sözüm hələ.

Bir oğlunam var günündə,
Sinəm səngər dar günündə,
Qəm önündə, dərd önündə,
Bükülməyib dizim hələ.

Çox əzaba gərdim sinə,
Çox gülləyə verdim sinə,
Bir od vurub tale mənə,
Sönməyibdi közüm hələ.

Itiriblər itməmişəm,
Yad bağçada bitməmişəm,
Istəyimə yetməmişəm,
Həsrət çəkir gözüm hələ.

Yazımızda bir qara var,
Aramızda Araz ağlar,
Sızıldayan bir yara var,
Sinəmizdə bizim hələ.





## ÖLƏN OLSA

Araz, səni söyən olmaz,
Çəkdiyini bilən olsa.
Ayrılarmız ayrı düşməz,
Bizi bir də bölən olsa.

Bu nə möhnət, nə həsrətdi,
Bu ayrılıq nə dəhşətdi,
Ağlamaq da səadətdi,
Göz yaşını silən olsa.

Şimşək olub çaxacağam,
Dərdi oda yaxacağam,
Ölənəcən baxacağam,
Gözlərimi dələn olsa.

Xudafərin çiçək açar,
Könül oxşar, ürək aşar,
Ayrılıq baş alıb qaçar,
Vallah gedib-gələn olsa

Bağrım başı bax, yaradı,
Tale dönük, yurd paradı,
Həsrət, yerin ön sıradı,
Bu məramla ölən olsa.

## AĞLAMA

Dərmanını tapasıyam,
Dərdim, ağlama-ağlama.
Hər gələndən sənə əlac,
Sordum, ağlama-ağlama.

Sızıldayır həsrət neyi,
Dərd çəkənin qalmaz heyi,
Ah-naləmlə yeri-göyü,
Yordum, ağlama-ağlama.

Nə deyim, bu yazı qara,
Gözlərimdən çəkir dara,
Azərbaycan, sinən para,
Yurdum, ağlama-ağlama.





## QARDAŞIQSA

Gəl ucaldaq, bu birliyi,
Bir pillə sən, bir pillə mən.
Bilirsənmi yaz deyilik,
Bir güllə sən, bir güllə mən.

Ayrı-ayrı alışmayaq,
Qarnımıza çalışmayaq,
Qardaşıqsa danışmayaq,
Bir dillə sən, bir dillə mən.

El yolunda dərd çəkərək,
Yoxsa bizdə yanan ürək,
Başımıza çaxaq gərək,
Bir güllə sən, bir güllə mən.

## PÖHRƏ KİMİ

Üstümə dərd ələnər,
Ömrümü dərd dənələr,
Başıma aylar-illər,
Fırlanır cəhrə kimi.

Yollarım tozla dolu,
Toz altı izlə dolu,
Ürəyim sözlə dolu,
Çalxanır nəhrə kimi.

Tale pay bölüb qismət,
Bir az qəm, bir az həsrət,
Arada Araz, Həsrət,
Göyərir pöhrə kimi.





## QEYRƏTİDİR

Süfrəsində halal çörək-
Duz, kişinin qeyrətidir.
Doğma oba, doğma ocaq-
Köz kişinin qeyrətidir.

Olmaysan qara yaxan,
Yaxşılığı başa qaxan,
Insanlara təmiz baxan,
Göz kişiinin qeyrətidir.

Həsrət, yansan köz üstündə,
Hər əzaba döz üstündə,
Möhkəm dayan söz üstündə,
Söz kişinin qeyrətidir.

## TƏKLƏNƏ-TƏKLƏNƏ

Həsrət gizli güdüb bizi,
Içimizdən didib bizi,
Zaman-zaman udub bizi,
Torpaq, ləklənə-ləklənə.

Tale yersiz yaralayıb,
Ölüm vaxtsız qaralayıb,
Bizi yaman uralayıb,
Illər, təklənə-təklənə.

Hər bir dərdə dözülübdür,
Səbrimiz də süzülübdür,
Ətəyimiz üzülübdür,
Ətəklənə-ətəklənə.





## QƏRİB

Içində cücərər qəribin dərdi,
Içində boy atar sevinc çiçəyi.
Üzdən gülümsəyər, üzdən sevinər,
Içində ürəyi həsrət dibçəyi.

Sıxar dörd divartək qərib yurd onu,
Ürəyindən yeyər vətən həsrəti.
Qəriblik bir yana, daşımaq olmur,
Qərib sözündəki qəmi, möhnəti.

Elə dərdlər var ki, ağlamaq olmur,
Adamın gözündə yaş da kiçilir.
Qəriblik çəkilən dərd deyil, qardaş,
Qəribliyə düşən daş da kiçilir.

# SƏNSİZ BİR GÜNÜM OLMASIN





## NAHAQ YERƏ

Verdim ürəyimi sənə əmanət,
Bilmədin qədrini sən nahaq yerə.
Axı əmanətə yoxdu xəyanət,
Böldün sevən qəlbi tən nahaq yerə.

Eşqin ürəyimdə əbədi bahar,
Orda bağ salmışam adına, ey yar,
Hələ yetmədiyim neçə arzu var,
Düşür tellərimə dən nahaq yerə.

Girdi aramıza hicran bilmədim,
Pozuldu etibar, peyman bilmədim,
Demədim canımı qurban bilmədim,
Məhəbbət naminə mən nahaq yerə.

## BİR PAYIZ KEÇDİ

Köçdü qatar-qatar durnalar köçdü,
Yaşılbaş ördəklər, sonalar köçdü,
Səbrimin yarpağı üzülüb düşdü,
O qız, gəlməyəcək, o qız, gecikdi.
Sevən ürəyimdən bir payız keçdi.

Keçdi ürəyimdən qış da, bahar da,
Yağdı başım üstə yağış da, qar da,
Görüş yerimizdə qoca çinar da,
Gözünü həsrətlə yollara dikdi,
Sevən ürəyimdən bir payız keçdi.

And içdik ilqardan dönməyəcəyik,
Bu eşqlə yansaq da sönməyəcəyik,
Vüsalsız sevdadan ürək də incik,
Tale də incikdi, bəxt də incikdi,
Sevən ürəyimdən bir payız keçdi.







## AĞLAMA ŞAİR

*Mən ağlayıb qurtarmışdım,*
*Ağladı tellər Saramı.*
**Nəriman Həsənzadə**

Mən nə deyim nəs illərə,
Ağlama, şair, ağlama.
Bir örnəksən nəsillərə,
Ağlama, şair, ağlama.

Dünya otaq, zaman dərdi,
Milyonları zaman dərdi,
El dərdidi şair dərdi,
Ağlama, şair, ağlama.

Seçmiş idi o, yar səni,
Tənha qoydu, o yar, səni,
Tənhalığın oyar səni,
Ağlama, şair, ağlama.

Sara, sənin yarın idi,
Sara sənin, yarın, idi,
Sara, sənin yarın idi,
Ağlama, şair, ağlama.

Yaralıdı sinən sarı,
Həsrətindən sinən sarı,
Sara, gəlməz sinən sarı,
Ağlama, şair ağlama.

## MƏNMİ... SƏNMİ...

Necoldu yetmədim vüsalına mən,
Mənmi gecikmişəm, sənmi tələsdin?
Yad oldu bir yerdə yanan qəlbimiz,
Yad oldu baxışın, yad oldu səsin.
Mənmi gecikmişəm, sənmi tələsdin?

Əlinin əlimdə izi var hələ,
Gözümün gözündə gözü var hələ,
Eşqinin sinəmdə közü var hələ,
Yanır ürəyimdə hey için-için.
Mənmi gecikmişəm, sənmi tələsdin?

Ayrılıq sinəmdə çatanda ocaq,
Həsrət qollarımı geniş açaraq,
Körpətək üstünə yüyürdüm, ancaq,
Soyuq bir baxışla yolumu kəsdin.
Mənmi gecikmişəm, sənmi tələsdin?





## ÜZÜMÜZƏ PAYIZ GƏLİR

Həsrətinlə az qalır ki, alışam,
Şöləsini gözlərimdən alır şam,
Qovuşdurar səni mənə bir axşam,
Vağzalının vüsal dolu sədası.
Üzmüzə payız gəlir qadası.

Baxışlarım hey arxanca sürünür,
Ürəyimdə hər an yerin görünür,
Bağ-bağçamız qızıl dona bürünür,
Qızıllaşar əllərinin xınası.
Üzümüzə payız gəlir qadası.

Qara zurna dil açacaq toy günü,
El-obaya yayılacaq xoş ünü,
Açılacaq bəxtimizin düyünü,
Dəyişəcək ömrümüzün dünyası.
Üzmüzə payız gəlir qadası.

## SƏNSİZ BİR GÜNÜM OLMASIN

Həmişə üz-gözümdə,
Duymuşam nəfəsini.
Bir şirin nəğmə kimi,
Dinləmişəm səsini.
Gözlərimlə açmışam,
Gecənin sinəsini.
Mən səni görməyəndə.

Gözlərindən süzülüb,
Ürəyinə axmışam.
Sənə gələn qadanı,
Ürəyimə sıxmışam.
Oxşadıb yanağına,
Dan yerinə baxmışam,
Mən səni görməyəndə.

Bu eşqin, bu istəyin,
Sonu toydu, düyündü.
Gözlərinin gülüşü,
Gözlərimdə yuyundu.
Mənə elə gəlir ki,
Ömrümün son günüdü,
Mən səni görməyəndə.
Sənsiz, bir günüm olmasın!





## YALANDI

Könül düşdün məhəbbətin oduna,
Varın-yoxun talandımı, talandı.
Arzuların, bu sevdanın çatdığı,
Ocağına qalandımı, qalandı.

Mən Kərəməm, həyat mənə Lələdi,
Lələm, məni çox odlara bələdi,
Qoca dünya yaranandan belədi,
Verdiyini alandımı, alandı.

Ay Həsrət, başında ömrün ağ payı,
Üzünə açılır torpağın layı,
Bu dünyada məhəbbətdən savayı,
Qalan nə var yalandımı, yalandı!

# Mündəricat

## Şəhid varsa vətən var

Yeri...4
Dağlara sarı...5
Yaz olanda gəl...6
Gətir...7
Yanır...8
Arasında...9
Yaşayıram...10
Şəhid varsa...11
Göstərın...12
Kişinin...13
Təhlükədi...14
Satılmır...15
Ölənləri bağışlayın...16
Gəzdirər...17
Çətindi...18
Keçib getdilər...19
Yazıram...20
Nə vecinə...21
Bilirsənsə...22
Bu dünyada...23
Qar yağdı...24
Elli...25
Bizi...26
Eloğlu...27
Deyil...28
Çək mənim ürəyimi...29
Kəlbəcərdə...30
Elə bil...31
Tərəfə...32
Bilmədim...33
Həsrəti...34
Dərdi ağırdı...35
Oxuyun məni...36





Qoruyur...37
Gəncədə...38
Bilmirsənsə...39
Müzadil vaxtı...40
Darıxma...41
Olmalıdı...42
Sabahın yiyəsi...43
Tərəf...44
Göy üzünə yağan yağış...45
Bax...46
Bağışla...47
Zülüm olacaq...48
Daş olmalıyıq...49
Firlaniram...50
Özümüzdən...51
Qağa...52
Qoru...53
Eləyin...54
Gəlməmişəm...55
Qalacaq...56
Yazım mənim...57
Yoxdu...58
Gəlmişəm...59
Qucaqla məni...60
Utanıram...61
Qardaş...62
Bükərsiniz...63
Savayı...64
Qalacaq...65
Arasında...66

## Elə sevərdim ki...

İstisinə...68
Hardadı...69
Çağırır...70
Ölməzmiyəm...71
Ürəyimdən...72

Sən demə ....73
Gözümdən düşüb....74
Bu sevgi....75
Ay işığında....76
Axtarıram....77
Gəzirsən....78
Naza bax....79
Ellərdən yana....80
Həsrətin....81
Kimi....82
Qalıbdı....83
Qaratelli....84
Həsrətini....85
Düşür....86
Yazımmı....87
O sinədə....88
O dağlarda....89
Ağlayırmı....90
Sevgidən ayrı....91
Yorulub....92
Qalmışam....93
Havalanıb....94
Səsinə....95
Sevgidi....96
Adsız ceyrana....97
Bir eşqin yolunda....98
Qadasından....99
Bir qız yaşayır....100

**Qeydiyyat** (*poema*)....101

### Ocaq daşı *(ilk kitab)*

Şer yazdıran Həsrət....114

### Vaxtın əsiriyik yaranan gündən

Dünya dəyirmandı....116





Susuz quyu....117
Zəncir bəndləri....118
Nağıllar....119
Kəndir kəsməyimiz var....120
Qorxu salxımı....122
Zaman və biz....123
Söykənə bilmirik....125
Qara bayraq....126
Gecə yarıdan sonra....127
Çəkibdi....128
Tərəzi....129
Özümüz hardayıq....130
Yuxuma girənlər....132
Geriyə baxmağa qorxuram....133
Baş hərləmişik....134
Dünya neynəsin....135
Sən nəyə gərəksən....136
Sabahından qorxuram....137
Atamla söhbət....138
Qıfıl....139
Beşiyimlə məzarımın arası....140
Qaranquş....141
Otuz üçüncü....142
Qapı....143
Yaxamı burax a dünya....144
Deyəmmirik....145
Tapılacaq....146

### Payıza həsrət düşüb

Şeir şəkillər....148
Aman hey....149
Bir payız da belə keçdi ömürdən....150
Dil....151
Nəs diləyən var....152
Olubdu....153
Bu hava oynamaq havası deyil....154
Kim yeyib....155

Dağlar ....... 156
Ədalət "Kərəmi" çalırdı ....... 157
Yurd qədrini bilən var ....... 158
Ana yurdum ....... 159
Yaman dəyişib ....... 160
Sahibsiz köpək ....... 161
Belə bilməzdim ....... 162
Özümüz ....... 163
Şeirlərim-dərdlərim ....... 164
Xoş gördük qardaş ....... 165
Bu yurdun ....... 166
Yanmaq olar ....... 167
Ocaq daşı ....... 168
Dibçək gülləri ....... 169
Aşmaq qorxusu ....... 170
Tənha bulaq ....... 171
Gəncə belə Gəncədir ....... 172
Araz ....... 173
Hələ ....... 174
Mən niyə qılınca əl atmayım ki ....... 175
Alnima yazılanlar ....... 176
O daş hardadı ....... 177
Ayrılıqdan söz düşəndə ....... 178
Dərd arasında ....... 179
Arazın nə günahı ....... 180
Bir od vurub ....... 181
Ölən olsa ....... 182
Ağlama ....... 183
Qardaşıqsa ....... 184
Pöhrə kimi ....... 185
Qeyrətidir ....... 186
Təklənə-təklənə ....... 187
Qərib ....... 188

## Sənsiz bir günüm olmasın

Nahaq yerə ....... 190
Bir payız keçdi ....... 191





Ağlama şair ....... 192
Mənmi... Sənmi... ....... 193
Üzümüzə payız gəlir ....... 194
Sənsiz bir günüm olmasın ....... 195
Yalandı ....... 196

HƏSRƏT

ELƏ SEVİRDİM Kİ...





**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

*Kompüter dizayneri:* **Zahid Məmmədov**
*Texniki redaktor:* **Rövşanə Nizamiqızı**

Yığılmağa verilmiş **28.03.2013**
Çapa imzalanmış **04.04.2013**
Şərti çap vərəqi **12,7.** Sifariş № **55**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab «**Elm və Təhsil**» nəşriyyat-poliqrafiya
müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail: elm_ve_tehsil@box.az**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.